Roy Heşn

# SEKSUAL GÜNAHIN UNUDULMUŞ AMİLLƏRİ

…Unudulmuş amillərdə səhv cinsi əxlaqsızlıq günahı üçün dərin tövbəyə yardım



Roy Heşn

# SEKSUAL GÜNAHIN UNUDULMUŞ AMİLLƏRİ

...Unudulmuş amillərdə səhv cinsi əxlaqsızlıq günahı üçün dərin tövbəyə yardım



ROY HESSION
BOOK TRUST

Originally published in English under the title
*Forgotten Factors of Sexual Sin: An Aid to Deeper Repentance*
by Roy Hession
Copyright ©1976, 2013 by Roy Hession Trust

Copyright © 2021 for the Azeri edition.
Translated by permission. All rights reserved.

# Ön söz

Bu kitabın yarımbaşlığı — “Dərin tövbəyə yardım” — müəllifin, dostum Roy Heşnin bölüşmək istədiyi fikir ciddi qəbul edilməlidir. Ötən 15–20 il ərzində dünyəvi həyat tərzi kilsəyə elə güclü təsir edib ki, (məhkəmədə anqlikan yepiskopunun bir romandakı zinanı “müqəddəs birlik” adlandırdığını yadımıza salaq) bu sahədə dərin tövbəyə çağırış bəlkə də bəzi adamlar üçün yersiz görünə bilər.

Paulun dövründə Efesdə olduğu kimi Erosa (yunan Allahı) sitayiş qərb dünyasının bir xüsusiyyətinə çevrildi. Allahın qanunları dəyişməyib, lakin bu kitabda vurğulandığı kimi Onun lütfü də o vaxtdan bu günə kimi dəyişməz qalıb.

Bu kitabın 7-ci fəslində deyilir: “Korinfdəki kilsə yeni imana gəlmiş zinakarlar (nikahda olmayan subay insanların cinsi əxlaqsızlığı), xəyanətkarlar (nikahda olan insanların başqa birisi ilə cinsi əxlaqsızlığı), homoseksuallar, oğrular və içki düşkünlərindən ibarət idi. Axı niyə də belə olmasın? Kilsə məhz Allahın lütfü ilə xilas olan bir dəstə günahkarlardan ibarətdir!”

Müəllif Allahın lütfünü belə izzətləndirir və günahın mahiyyətini bizə daha dərindən açıqladıqca hər birimiz günahsız olmadığımızı görürük. Buna görə də hamımızın bağışlanması üçün Rəbb İsa Məsihin ölümü və dirilməsi ilə əldə etdiyimiz Allahın lütfünə ehtiyacımız var.

Əgər bu kitab öz məqsədinə çatarsa, onda biz daha səmimi tövbə edərək Allahın lütfünü yeni və daha dərin bir şəkildə hiss edəcəyik.

Eddi Strayd
“Məsihin Kilsəsi” adlı anqlikan kilsəsinin rektoru,
Spitalfilds, London, İngiltərə

1

# Qəribə başlıq

Cinsi əxlaqsızlıq günahı kimi başqa heç bir günah həm şəxsi, həm də ictimai həyatda bu qədər əzab, xəcalət və fəsadlara səbəb olmur. Son qırx il ərzində Britaniyanın bütün adaları, Amerika və dünyanın digər yerlərində Məsihin Müjdəsini vəz edərkən çox vaxt çətin, kədərli və təcili həll tələb edən vəziyyətlərlə qarşılaşmışam. Mən onları bu kitabın başlığında "cinsi əxlaqsızlıq günahı" adlandırmışam. Belə halların çoxunu mən kilsədə, keçmiş vərdişlərindən hələ azad olmamış yeni imanlılar və bu vəziyyətlərin tələsinə düşmüş kilsəyə çoxdan gələnlər arasında görmüşəm.

Birinci fəslin olduqca qəribə "Cinsi əxlaqsızlıq günahı üçün dərin tövbəyə yardım" yarımbaşlığı bu kiçik kitabın mövzusunu təyin edir. İnsanın günahından qaynaqlanan problemləri və bədbəxtlikləri araşdırarkən Allahın lütfünün bütün bu məsələlərə tam cavab verdiyini görürük. Allahın lütfü həmişə insanın günahından daha böyükdür. Kimsə belə demişdi: "İsa təkcə qarmaqarışıqlıq yaradan günahkarı bağışlamır, Rəbb həm də bu qarmaqarışıqlığı aradan qaldırmaqdan zövq alır". Həyatda işlər düz getməyəndə Rəbb bizə kömək etməyə çalışır. O bizi sorğu-suala tutub günahlandırmaq istəmir, sadəcə olaraq hər kəsə Bet-Xasda hovuzundakı iflicə dediyi "Sağalmaq istəyirsənmi?" (Yəhya 5:6) sualını verir. İnsanın günahından qaynaqlanan fəsadları, problemləri və əzab-əziyyətləri Rəbdən yaxşı heç kim aradan qaldıra bilməz. Cürət edib sizi

əmin edə bilərəm ki, ecazkar Xilaskarın və şəfa Verənin izzəti Onun adını ucaldır.

Ancaq Allahın təmənnasız lütfünün şərti insanın səmimi tövbəsindən asılıdır. İnsanlar yalnız tövbə etdikdən sonra Allahın lütfünə arxalana bilərlər. Təəssüf ki, biz indiki dövrdə Müjdənin bu vacib hissəsini yaddan çıxarırıq. İnsanlar tövbə etməyi bacarmırlar. Hətta məsihçilər tövbənin onların ətraflarında olanlara deyil, *özlərinə* aid olduğunu bilsələr də, bu çağırış onlar üçün qəribə səslənir. Bundan əlavə insanlar, xüsusilə düzgün olmayan cinsi davranışlarında nə üçün tövbə etməli olduqlarını bilmirlər. Ona görə də onlar çox vaxt hansı günahı etdiklərini görmürlər. Ümumiyyətlə, tövbə etsələr də, onlar əsas lazım olan şey üçün tövbə etmirlər. Yüksək mənəviyyatı olan Allahı narahat edən belə səhv davranışların səbəbi unudulur. Beləliklə, insan Allahın ondan tələb etdiyi günaha görə tövbə etmədiyi üçün Onun lütfünü tamlığı ilə dərk etmir və Onun verə biləcəyi gözəl şəfanı almır.

Kitabın yazılmasında məqsəd bu unudulmuş amillərə nəzər salmaqdır. Ümidvaram ki, heç olmasa kiməsə Müqəddəs Ruh toxunacaq və etdiyi günaha görə tövbə edəcək. Beləcə təqsirini etiraf etmiş insan Allahın günahkar üçün olan lütfünün şirinliyini dadacaq. Bu lütf təkcə günahkarı bağışlamır, eləcə də sınıq qabı — insanın həyatını yenidən bərpa edir ki, o bütün qəlbi ilə belə oxuya bilsin:

*Ya Rəbb, kim Sənin kimi bağışlaya bilər və ya*
*kim Sənin kimi belə zəngin təmənnasız lütfə sahibdir?*

Kitabın məqsədi yarımbaşlıqda göstərildiyi kimi "Cinsi əxlaqsızlıq günahına görə dərin tövbəyə yardım"dır. Əlinizdəki bu vəsait günahkara dəstək ola bilər. Həvari Paul öz nəsihətində demişdi ki, qoy "lütfü ilə əbədi cəsarət və xeyirli ümid verən Atamız Allah" (2 Saloniklilərə 2:16) bunu həyata keçirsin.

Cinsi münasibətlərlə bağlı məsələlərə gəldikdə, demək olar ki, hamı özünü mütəxəssis hesab edir! Son illərdə bu mövzu çox müzakirə olunur və bir çoxlarının bununla bağlı olduqca yetkin düşüncələri var. Bu səbəbdən də bəziləri kitabda yazılanlara ciddi yanaşmaya bilər. Ancaq bu vəsait çətin vəziyyətdə olanlar üçündür, yəni boğulmaqda olan insana atılan xilasedici dairə kimidir. Əgər kimsə bu məsələlərə yanaşmanın bir qədər sadə olduğunu və həmin mövzuda müasir düşüncənin nəzərə alınmadığını fikirləşirsə, onlara cavabım belədir. Müqəddəs Kitab aydın şəkildə günahı günah olaraq adlandırır və eyni zamanda tövbə edən hər kəsə Allahın lütfünü təqdim edir. Bu lütf günahkarın bütün səhvlərini bağışlayır və onu bütün çətinliklərdən qurtarır.

Bu kitabın məqsədi insanın pis nəticələr gətirən səhvlərdən qaçmaq üçün özünü necə aparması barədə öyüd-nəsihət vermək deyil. Burada həyatında səhvlər etmiş insanlar haqda danışılır və onlara dəyərli məsləhət vermək artıq çox gecdir. Bəs belə bir vəziyyətdə olan insanlara yaxşı bir xəbəriniz varmı? Bəli, əlbəttə var.

2

# Unudulmuş amillər

Bu gün cinsi əlaqə barədə düşüncələr cəmiyyətimizi o qədər çulğalayıb ki, biz səhv cinsi davranış haqqında düşünəndə cinsi əlaqənin yalnız natəmizliyi, şəhvəti, cilovsuzluğu və təhrif olunması fikrimizə gəlir. Əgər bunlar cinsi münasibətlərin yaratdığı ən böyük şər əməllərdirsə, onda insanlar özləri üçün asanlıqla bəhanə gətirə bilərdilər. Onlar deyirlər: "əlbəttə, bu sadəcə bioloji və olduqca təbii bir şeydir. Qadağa qoyulmuş sərhədi təyin etmək olarmı və onun hüdüdundan kənarda olan hər şeyin əxlaqsızlıq olduğunu sübut etmək mümkündürmü? Edilən hərəkətlər şəhvət ola bilər, amma bu təbiidir." Belə səhv davranışın əsas günahı şəhvət və natəmizlik olsa da, insanlar bu fikirlə razılaşmırlar.

Qəribədir ki, Allahın düşüncələri barədə yeganə mənbə olan Müqəddəs Kitabda bu haqda çox az qeyd olunub. Şübhəsiz ki, Müqəddəs Kitab şəhvət və natəmizlikdən yaranan səhv cinsi davranışları mühakimə edir. Bu haqda Kəlamda qeyd olunması da heyrətamizdir. Elə bir məktub yoxdur ki, Paul məsihçilərə müraciət edərkən bu günahlardan və onları edən insanlardan danışmasın. Sonra o, "Allahın qəzəbi itaətsizlərin üzərinə gəlir" (Kolosselilərə 3:6) və "sizə əvvəllər xəbərdarlıq etdiyim kimi indi də xəbərdarlıq edirəm ki, bunları edənlər Allahın Padşahlığını irs almayacaqlar" (Qalatiyalılara 5:21) deyir. Buradan aydın olur ki, Müqəddəs Kitab şəhvət, natəmizlik və əxlaqsızlığı ittiham edir.

Ancaq Müqəddəs Kitabda bu suala az diqqət yetirilir. Kəlam cinsi ünsiyyətin heç bir iyrənclik olmadan həm düzgün, həm də səhv olan fiziki cəhətlərini qeyd edib. Müqəddəs Kitab hər şey barədə açıq danışsa da, ən şəhvətpərəst oxucular üçün bu mövzuda yazılanlar maraqlı olmayacaq, çünki Kəlamın yazılmasında məqsəd bu deyil. Əlbəttə ki, indi nəşr olunan bir çox kitablarda, hətta böyük ədəbi əsərlərdə bu kimi davranışlar adi bir hal kimi qeyd olunur. Müqəddəs Yazılarda cinsi ünsiyyətə, hətta ən rüsvayçı cinsi əlaqə formalarına olan bütün eyhamlar pak və həm də təsirlidir. Tanrı insanların təqsirkar və üzrsüz olduqları günahlarının arxasında duran böyük şəri göstərməyə çalışır. Onların törətdikləri əməllər əxlaqın əbədi prinsiplərinə, Allaha və insan təbiətinə qarşı gedir. Bu mənada bizim üçün səhv cinsi münasibətlər istənilən digər səhv davranışlardan fərqlənmir. Günah sadəcə bizim xudbinliyimiz, Allahdan aslı olmamağımızdır və əslində bu həmişə belədir. Birinin cinsi ünsiyyətlərlə əlaqəli ehtirasları var, digərinin isə hamıdan üstün olmaq, vəzifəpərəstlik istəyi var. Müəyyən bir vəziyyətdə insanın Allahın iradəsinə qarşı olan itaətsizliyinin dərəcəsi onun günahkarlığının dərəcəsindən aslıdır. Allah səhv cinsi münasibətləri digər səhv davranışlar kimi ittiham edir və bunu dərk edəndə biz Onun məhkəməsinə heyran oluruq.

Biz səhv cinsi münasibətlərin gətirdiyi əsl şərin səbəblərini unutmuşuq. Kişi və qadınlar həyatlarının böhranlı anlarında günahlarından tövbə etməyə çalışdıqda, nadir hallarda öz ehtiras və murdarlıqlarını etiraf edirlər. Allahsa bizdən dərin tövbəni gözləyir, günahımızın yaratdığı fəsadlara görə tövbə etməyimizi istəyir. Biz səhv cinsi münasibətlərə görə başqa birinə qarşı pis hərəkət etdiyimizi, günahımızın saysız-hesabsız problemlər yaratdığını, cinsi davranışlardan sui-istifadə edəndə bədənimizə qarşı etdiyimiz hörmətsizliyi və ən əsası isə bizi sevən Allahı nə cür kədərləndirdiyimizi boynumuza almalıyıq. İnsan bu unudulmuş amillər üçün nadir hallarda tövbə edir. Tövbə edənlər daha dərindən tədqiq etsələr, görərlər ki, hərəkətlərinin günahlı tərəflərinə heç

vaxt diqqət yetirməyiblər. Ona görə də onlar Allahın lütfünün şirinliyini heç vaxt dadmayıblar. Bəzən Məsihi öz Xilaskarı kimi qəbul edən insan Allahın lütfünü hiss etmir. Belə insan Məsihə iman edəndə onun şəhadəti təsirli olmur. Yəqin ki, belə insan bir günahkar kimi hər şeyi bağışlayan Xilaskarından zövq ala bilmir. Əslində Allah ondan daha səmimi tövbəni gözləyir. Bəlkə də həmin insan öz günahının ən vacib xüsusiyyətlərini dərk etməyib, ya da bir dəfə dərk edəndən sonra onları unudur.

Beləliklə, biz müxtəlif növ səhv cinsi münasibətlərin unudulmuş amillərini ətraflı nəzərdən keçirməyə başlayırıq.

3

# Ər-arvad vəfasızlığında unudulmuş amil

Müqəddəs Kitabda səhv cinsi münasibətləri aydın şəkildə təsvir edən bir hekayə var. Burada padşah Davudun öz əsgərlərindən birinin arvadı Bat-Şeva ilə bağlı səhv davranışı göstərilir. Hekayədə olan ibrətamiz cəhət insanın iyrənc hərəkəti deyil, Allahın bununla əlaqədar münasibətidir. O Özünü bir tərəfdən həqiqət və mühakimə Allahı, digər tərəfdənsə mərhəmət və lütf Allahı kimi göstərir. Bu hadisədə dahi (digər cəhətlərinə görə) və mömin padşahın təkcə uğursuzluğundan deyil, həm də Allahın bu uğursuzluğu möcüzəli surətdə yoluna qoymasından danışılır. Baş vermiş bu hadisə sadəcə qeyri-əxlaqi davranış olduğuna görə bütün dünyada məşhurdur. Amma bu hadisənin Müqəddəs Kitaba daxil edilməsinin səbəbi Davud kimi günahkarı bağışlayan Allahın izzətinin necə əzəmətli olduğunu göstərməkdir. Tanrı Davudu günahına görə düşdüyü vəziyyətdən çıxarır və onu cəzalandıraraq müqəddəsliyə, eləcə də Özü ilə ünsiyyətə yönəldir. Beləcə, dünya bu hadisəyə başqa nəzərdən baxsa da, Müjdəni vəz edən şəxs onu daha yaxşı anlayır.

Hekayənin birinci hissəsini qısaca nəzərdən keçirək. Davudun ordusu düşmənlərlə vuruşduğu bir vaxtda özü Yerusəlimdə idi. Padşah gündüz yuxudan oyandıqdan sonra axşamın sərinliyində evinin damında gəzirdi. Davud gördü ki, gözəl bir qadın kiminsə ona göz qoyduğunu güman etmədən öz bağçasında çimir. Padşah bilirdi ki, həmin evdə yaşayan qadın onun uzaqda vuruşan əsgərlərindən

birinin arvadıdır. O, qadını yanına çağırdı və onunla yaxınlıq etdi. Sonra qadın öz əvvəlki həyatına qayıtdı. Onların arasında baş verənləri yalnız ikisi bilirdi. Bu hələ hekayənin başlanğıcıdır, amma gəlin burada dayanaq.

Hələlik hekayədə qeyri-adi bir şey yoxdur. Əfsus ki, belə hadisələr insan həyatında baş verir və bu hərəkətə qarşı Allahın münasibəti göstərilməsəydi, bu hekayə yalnız pornoqrafiyaya aludə olmuş insanlar üçün maraq doğurardı. İnsan həyatını maraqlı edən yeganə amil orada Allahın hərəkət etməsidir. Düzdür, bir çoxları bununla razılaşmayacaq. Bizim dövrümüzdə baş verənlər bütün əsrlərdə baş verib. İnsan öz günahlarında çox vaxt şablon hərəkətlər edir. Amma biz Allahın həyatımızda hərəkət etdiyini və uğursuzluqlarımızı yoluna qoyduğunu biləndə hekayə daha maraqlı olur, çünki tamamilə yeni bir məqam yaranır. İnsanın həyatında ən maraqlı hadisə onun Məsihlə ilk görüşüdür. Əgər oxucu belə hekayələr eşitməyibsə, deməli o, kilsənin ən heyrətamiz görüşlərində iştirak etməyib. Amma insanın necə yaşadığı, həyatından razı qalmadığı, hansı uğursuzluqlarla üzləşdiyini dinləməyin nə marağı var? Belə hekayələr hər bir kəsin həyatında baş verən darıxdırıcı hadisələrin sadalanmasına çevrilə bilər. Lakin insan öz həyatında Allahın necə hərəkət etdiyini, onu mühakimə etmədiyini, əksinə lütf verdiyini və bütün bunların onu xoşbəxt etdiyini söyləyirsə, onu dinləyənlər diqqətlə qulaq asıb sonda Rəbbə izzət gətirirlər. Allahın hüzuru və bizə qarşı münasibətləri insanın həyatını belə əlamətdar edir!

Beləliklə, qarşımızda Davudun hekayəsini təsvir edirik. Allahdan başqa padşahın gizli günahından heç kimin xəbəri yox idi və Allah onun bu hərəkətinə cavab verir. Birincisi, Allah Davudun günahkar olduğunu göstərməli idi ki, padşah etdiyi hərəkətin həqiqətən günah olduğunu anlasın. Bir müddət göylərdən heç bir cavab gəlmir. Günah Davudun vicdanı ilə üz-üzə qalır. Məzmurların birində o bizə bu müddət ərzində nə keçirdiyini belə təsvir edir: "Etiraf etməyəndə bütün gün nalə çəkməkdən sümüklərim taqətdən düşdü. Əlin üzərimdə gecə-gündüz ağırlaşdı, sanki yayın quraqlığı

məni taqətdən saldı" (Zəbur 31:3–4). Amma o bunları söyləsə də, belə görünür ki, hələ də öz hərəkətinin günah olduğunu dərk etməyib. Nəhayət, Allah Natan peyğəmbəri onun yanına göndərir ki, sözünü ona çatdırsın. Natanın danışdığı hekayədə Davudun hərəkətində olan şəhvət və ehtiras barədə heç bir şey qeyd olunmurdu. Bu sadə hekayə daşürəkli bir insanın digərinə qarşı səhv hərəkətindən bəhs edirdi. Natan elə danışırdı ki, sanki bu vəziyyətdə ona padşahın qanuni hökmü lazımdır. O, çoxlu mal-qarası, qoyun sürüləri olan varlı sahibkar haqqında danışırdı. Həmin zəngin adamın qonşuluğunda kasıb bir kəndli yaşayır və onun yeganə var-dövləti bircə quzusudur. Ola bilsin ki, kasıb kəndli quzusunu böyüdüb ondan bala götürmək istəyirdi, amma eyni vaxtda həmin quzu uşaqlarının oynadıqları ev heyvanı idi. Gözlənilmədən qərib bir adam varlı sahibkargilə qonaq gəlir. Nahar hazırlamaq üçün varlı adam "öz sürüsündən və naxırından heyvan götürüb kəsməyə qıymadı... kasıbın quzusunu götürüb kəsdi və yanına gələn qonağa yemək hazırladı" (2 Şamuel 12:4). Müqəddəs Kitabda oxuduğumuz bu sözlər necə də təsirlidir. "O adama qarşı Davudun qəzəbi alovlandı və Natana dedi: 'Var olan Rəbb haqqı, bunu edən adam ölümə layiqdir. Bu işi gördüyünə və rəhmsizliyinə görə o, quzunun əvəzini dördqat verəcək'. Natan Davuda dedi: 'O adam sənsən!'" (2 Şamuel 12:5–7)

Həmin vaxta qədər Davud hekayənin ona aid olduğunu hələ dərk etmirdi. Gərgin döyüşlərdə olan əsgərlərindən birinin arvadına sahib olmaqla o, məhz varlı adam kimi hərəkət etmişdi. Davud həmin varlı adamın hərəkətinə bərk qəzəblənmişdi. Həmin dövrlərdə bütün padşahlarda olduğu kimi arvad və kənizlər sarıdan korluq çəkməyən padşah sadə əsgərlərindən birinin yeganə arvadına qarşı münasibətilə onun xoşbəxtliyini əlindən aldı. Həmin əsgərin bundan xəbəri yox idi və döyüş bölgəsində vuruşaraq padşaha xidmət edirdi. Belə bir vaxtda Davud onun evinə girib ailə xoşbəxtliyini məhv etmişdi. Qadının hərəkəti barədə heç kim xəbər tutmasa da və yenidən bu təkrarlanmasa da, artıq onun ərinə qarşı hissləri başqa

cür olacaqdı. Kim bilir, bu qadağan olunmuş hərəkət sonralar onu hansı nəticələr ilə üz-üzə qoyacaqdı? Allah Davudu şəhvətinə və zina etdiyinə görə deyil, digər insana qarşı törətdiyi pisliyinə görə ittiham etdi. Bu, Davud üçün səhv cinsi davranışında unudulmuş amillərdən biri idi.

Allah bizə problemin məhz bu tərəfini göstərmək istəyir. Biz başqasına qarşı etdiyimiz dəhşətli günahımıza görə dərin tövbə etməliyik ki, Rəblə sülhümüz olsun. "Zina etmə" (Çıxış 20:14) əmri Allah qarşısında olan məsuliyyətlərimiz barədə olan birinci daş lövhədəki digər əmrlərlə birləşdirilməyib. Amma bu əmr yaxınlarımıza qarşı olan ünsiyyətimiz barədə ikinci daş lövhədə qeyd edilib. Birinci lövhdəki əmrlər "Allahın Rəbbi bütün qəlbin sev", ikinci lövhədə isə "Qonşunu özün kimi sev" Məsihin sözləri ilə ümumiləşdirilib. Buna görə də zina insanın qonşusuna olan sevgi qanununun pozulması deməkdir. Kimsə etdiyi zinanın qadına olan məhəbbətindən qaynaqlandığını və bu səbəbdən də sevgi qanununun pozulmadığını iddia edə bilər. Qadına qarşı olan bu münasibət nə olursa olsun, bu onun ərinə olan sevgisi deyil. Ər-arvad vəfasızlığı digər insanın haqqının, marağının və hisslərinin kobud şəkildə pozulmasıdır. Çox vaxt bu hərəkətin baş verdiyi vəziyyətlər (adətən bir deyil, dəfələrlə baş verir) davranışı daha da iyrənc və cəzaya layiq edir. "Zina etmə" əmrinin ikinci lövhədə olmasından başqa onun həmin lövhədəki yeri də vacibdir. Bu əmr "Qətl etmə" və "Oğurluq etmə" əmrlərinin arasında yerləşir. Allah bu əmrə də həmin kateqoriyadan olan əmr kimi baxır. Əslində bu hərəkət digər insanın ərini və ya arvadını oğurlamaq, başqasının intim xoşbəxtliyini əlindən almaq və onun evinə soxulmaqdır.

Nə qədər qəribə olsa da, Tanrının həyatın bu sahəsi ilə çox maraqlandığı görünür və başqasının hüquqlarının pozulmaması üçün məsuliyyət daşıdığı hiss olunur. Əslində O özünü bütün bunların intiqamçısı elan edir. Paul deyir ki, "heç kim haqsızlıq edib bacı-qardaşını istismar etməsin. Çünki əvvəlcə sizə dediyimiz və xəbərdarlıq etdiyimiz kimi, Rəbb bütün bunlara görə qisas

alacaq" (1 Saloniklilərə 4:6). Burada məzmundan aydın olur ki, söhbət cinsi münasibətdən gedir. İbranilərə məktubda oxuyuruq: "Qoy hər kəs nikaha hörmətlə yanaşsın. Qoy ər-arvad yatağı murdarlanmasın. Çünki Allah əxlaqsızları və zinakarları mühakimə edəcək" (İbranilərə 13:4).

Əgər bir insan öz istəklərinə çatıbsa, necə deyərlər, ikinci bir evlilikdə yeni bir xoşbəxtlik əldə etdiyini düşünürsə, həmin şəxs bunun nəyin bahasına başa gəldiyini asanlıqla unudur. Bunun üçün bir başqası öz xoşbəxtliyini qurban verib. Kimsə öz həyat yoldaşını itirməklə bunun əvəzini ödəyib; kimsə gecəyə qədər göz yaşı töküb; kimsə xoşbəxtlikdən məhrum olub; kiminsə ocağı dağıdılıb; kimsə tənha qalıb, təkbaşına mübarizə aparıb; uşaqlar atasız və ya anasız qalıb. Yeni sevgidən zövq alarkən digər insana qarşı edilən dəhşətli şər əməli və əzab-əziyyəti unutmaq çox asandır.

Amma Allah bunları unutmur. İllər keçsə də, Qabilə dediklərini söyləməkdə davam edir: "Qardaşının qanının səsi torpaqdan Mənə fəryad edir." (Yaradılış 4:10). Başqasına qarşı etdiyi bu mənfur şər əməlinə görə tövbə etməyən insan Allah ilə heç vaxt sülhə daxil olmayacaq. Elə vaxt gələcək ki, bu insanın Allahın köməyinə ehtiyacı olanda günahına görə tövbə edib bağışlanmayana qədər Allahı tapa bilməyəcək.

Əlbəttə ki, belə vəziyyətlərdə insan onu kor edən düşüncələrinə görə dəhşətli günahını görmür. Onlar çox vaxt deyirlər ki, ər və arvad birlikdə xoşbəxt deyildilər və həyatları "it-pişik" həyatı kimi idi. Cütlüyün öz hərəkətlərinə haqq qazandırmaları üçün belə anları şişirtməyi necə də asandır! Hətta belə yaşamaqları doğru olsa da, (əlbəttə, belə hallar az deyil) insanlar buna dözüb yaşayır və lazım gəlsə, axıra qədər belə yaşamağı düşünürlər. Onları cəlb edən ikinci insan həyatlarında peyda olana qədər bu davam edir. Əgər yeni gəlmiş həmin insan onun hisslərinə cavab verməsə, ailə dağılmaz. Bir çox hallarda ailənin dağılmasına səbəb birinci həyat yoldaşı ilə yaşaya bilməmək deyil, yeni həyat yoldaşını istəməkdir. Hətta iki nəfərin uğursuz birliyi olsa da, üçüncü şəxsin araya girməsinə

haqq qazandırmaq olmaz. Siz maşınınızın qayğısına qalmayıb onu pis vəziyyətə gətirib çıxara bilərsiniz, amma bu demək deyil ki, onu başqa birisi mənimsəyib daha yaxşı rəftar edə bilər. Əgər ər-arvad vəfasızlığına haqq qazandırmağa çalışırıqsa, gəlin özümüzə xoşagəlməz sual verək: "ər və ya arvad həyat yoldaşından ayrıldığına görə və indi onlar həyatlarında olan yeni insandan zövq alırlarmı?" Ailə xoşbəxt olmasa da, belə hal yarandıqda atılmış ərə və ya arvada bu həmişə pis təsir edir. Bir çox hallarda isə bu böyük kədər və bədbəxtliyə gətirib çıxarır.

Düşünürəm ki, xüsusən qadınların kiməsə yazığı gəlir və Allahın gördüyü kimi vəziyyəti görə bilmirlər. Kişi xoşbəxt olmadığını söyləyəndə qadının ona yazığı gəlir və fikirləşir ki, kişinin həyat yoldaşının verə bilmədiyini o verə biləcək. Bu yeni peyda olmuş qadının ailəsi onu ittiham etsə belə özünü inandıra bilər ki, yaxşı iş görür. Bəzən bu cür qadınlar kişinin arvadının ərinə vermədiyi şeyi o verə biləcəyini düşünür və bununla qürurlanır. Amma ikinci qadın Allahın həmişə diqqət mərkəzində saxladığı bir faktı yaddan çıxarır ki, o, digər qadına qarşı dəhşətli günah edir. Belə günah etmiş qadın həqiqətən günahlarına görə tövbə edib İsa Məsihi öz Xilaskarı kimi qəbul etsə, Allahın şəfa verən lütfünə nail olacaq.

Mən bir kişinin başqa qadına vurulduğu və həyat yoldaşına xəyanət etdiyi bir vəziyyətlə tanışam. Arvadı həmin kişidən boşandı və kişi digər qadınla evləndi. İllər sonra hər üçü Xilaskar olaraq İsa Məsihi qəbul etdilər. Belə bir vəziyyət kişini narahat edirdi, amma ikinci arvadı hər şeyin olduğu kimi qalmasından razı idi və narahatlıq üçün heç bir səbəb görmürdü. Mən vəziyyəti yaxından araşdırmamışam, amma məni təəccübləndirən bu idi ki, ikinci arvad birinci arvadın təklikdə yaşadığını, özünü dolandırmaq üçün işlədiyini, əziz olan ərindən ayrı yaşadığını və onun ailə xoşbəxtliyini dağıdıb ərini əlindən aldığını düşünürmü? Şübhəsiz ki, o, kişi ilə ilk əlaqəsində şəhvətin olduğundan xəbərdar idi və bilirdi ki, belə əlaqəyə girməli deyildi. Belə vəziyyətdə bunu anlamaq çox vacibdir. Görəsən, həmin qadın Allah qarşısında təvazökarlıqla

tövbə etdimi? Digər qadına qarşı törətdiyi günahı Allaha bildirdimi? O biri qadına hər şeyi etiraf etdimi? Ondan bağışlanmasını istədimi? Nəyisə düzəltməyə çalışdımı?

Belə hadisə bu şəkildə təsvir edildikdə bizdə, xüsusilə özümüz belə vəziyyətdə olduqda dərhal praktiki suallar yaranır. Düzgün hərəkət etmək üçün nə etməliyəm? Bəlkə mən vəziyyəti düzəltməliyəm? Bəlkə birlikdə yaşadığım adamdan imtina etməliyəm, bəs uşaqlar necə olsun? Digər bir halda sual ola bilər ki, ərə və ya arvada baş verənləri danışmaq lazımdırmı? Bəlkə həyat yoldaşının bundan xəbəri olmasa daha yaxşıdır? Çox vaxt insanlar dərin tövbə etməzdən, etdikləri hərəkəti Allah qarşısında günah olaraq mühakimə etməzdən əvvəl belə suallar verirlər. Allah bizə belə deyərdi: “Əvvəlcə bunu et, onda Mənim səni bağışladığıma əmin olacaqsan. Bundan sonra səndən nə istədiyimi və onu nə vaxt etməli olduğunu biləcəksən”. Allah qarşısında dərindən tövbə etmək və hər şeyi etiraf etmək lazımdır. Bundan sonra vəziyyət hər şeyi yenidən bərpa etməyə qadir olan Allahın əlindədir. Biz özümüzü Rəbbə təslim etməliyik ki, O istədiyi kimi hərəkət etsin və hər şeyi bərpa etsin. Tanrı istəmir ki, biz bu işi tələsik görək. Bəzən Allahın iradəsini bilmək üçün bizə kömək etmək istəyən təcrübəli məsihçinin məsləhəti gərəkdir.

4

# Zinada unudulmuş amil

Bu fəsildə mən köhnə “zina” sözündən istifadə edəcəyəm, əslində bunu əvəz edən müasir söz yoxdur. Mənim fikrimcə bu məfhumun az istifadə olunmasına səbəb sadəcə müasir dövrümüzdə belə şeylərə diqqət yetirməməyimiz və bu xoşagəlməz sözləri işlətməməyimizdir.

Ər-arvad vəfasızlığı ilə zina arasında fərq budur ki, birinci halda bu bir və ya iki evli cütlüyün səhv cinsi münasibətləri sayəsində baş verir. İkincisində isə bu günah nikahda olmayan iki insan arasında yaranır. Ər-arvad vəfasızlığına qanuni nikahın pozulması kimi baxılır, zinada isə heç bir qanuni müqavilə pozulmur. Ona görə də insanlar bu davranışa o birisi kimi çox da ciddi yanaşmırlar. Əslində ər-arvad vəfasızlığında olan digərinə qarşı edilən pislik elementi zinada yoxdur. Geniş yayılmış bir fikrə əsasən zinada heç kim üçüncü tərəfə pislik etmir və ona görə də insanlar çox vaxt belə davranışa görə tövbə etmirlər.

Burada yalnız hərəkətdə şəhvətin olduğunu düşünsək, asanlıqla demək olar ki, bu təbii və bioloji bir şeydir və müasir dövrdə köhnə əxlaq qanunları dəyişilib. Ancaq Allah yenə də başqasına qarşı edilən və fəryad edən həmin şəri göstərməyə çalışır. Geniş yayılmış fikirlərə baxmayaraq Allah zinanı da ər-arvad vəfasızlığı kimi şər əməl hesab edir. Əlbəttə ki, zina edən şəxs də ər-arvad

vəfasızlığında iştirak edən şəxs kimi hər şey üçün dərindən tövbə etməlidir ki, Allahdan sülh əldə etsin.

Digərinə qarşı edilmiş şər əməl hər şeydən öncə bu deməkdir ki, qadın və ya kişi digər insanı vicdanına qarşı getməyə vadar edir. Bu sual barədə bütün müasir ideyalara baxmayaraq insanlar hələ də hiss edirlər ki, bu şər əməldir. Zinaya aid çoxlu məqalələr və danışıqlar olsa da, insanın vicdanı zinanı günah adlandırmaqda davam edir. Kişi hər hansısa bir qızı yoldan çıxaranda və ya ehtiraslı qız cavan oğlanı yoldan çıxaranda həmin insan öz hərəkəti ilə digər insanın şərəfini itirməsinə, vicdanının ləkələməsinə, yalan danışıb ört-basdır etməsinə təhrik edir. Bu da öz növbəsində həmin qadını və ya kişini elə vəziyyətə gətirir ki, bir gün əzablardan qurtulmaq üçün psixiatra müraciət etsin. Sizcə bu davranış yaxınına qarşı törətdiyiniz şər əməl deyilmi? İnsanın sahibi olduğu ən dəyərli şey şərəf və təmiz vicdandır. Bu, onun əqli və psixoloji rifahı üçün əsasdır. Başqasını şərəfdən və təmiz vicdandan məhrum edən şəxs necə də günahkardır!

Sonra başqa birisinə qarşı dəhşətli şər əməl törədilir, kişi və ya qadın o biri insanı sürüşkən yola təhrik edir. Bu da növbəti cinsi əxlaqsızlığa və səhv cinsi münasibətlərə gətirib çıxarır. Yoldan çıxarılmış qız və ya cavan oğlanın daddığı bu günah onu şirnikləndirə bilər. Bu sanki kiçik bir qığılcımdan başlamış alov kimi artıb həmin insanı əxlaqsız həyat yaşamağa yuvarladır. Allahın gözündə əxlaqi məsuliyyət insanı pis yola çəkən və ya kömək edən şəxsin üzərindədir. Ehtiyatlı olun! Cinsi əlaqə yavaşca yanan alovdur və onunla oynamaq alova kerosin tökmək kimidir. Cinsi əlaqəyə girdiyimiz insanın pis yola düşmədiyinə görə özümüzə bəraət qazandırmamalıyıq. Həmin insanı bu yola çəkdiyimiz və bu yolda onun daha da irəliləməsi üçün imkan yaratdığımıza görə məsuliyyət daşıyırıq. Bu məsələdə özünü məsuliyyətdən qaçırmaq istəyən bəzi kişilər qürurla deyə bilərlər ki, heç vaxt bakirə qıza toxunmayıblar, cinsi əlaqədə olduqları qadınlar onlara qədər artıq bakirəliklərini itirmişdilər. Bu, onları Allah qarşısında məsuliyyətlərindən azad

etmir. Digər insanı əxlaqsızlığa sürüklədiklərinə görə günah onların üzərlərində qalır. Həmin qadının ilk dəfə bakirəliyini pozan insan onu bu yola təhrik etdiyi üçün günahkar olduğu kimi ondan sonrakı kişi də qızın vəziyyətindən istifadə etdiyinə görə təqsirkardır. İkinci kişinin günahı budur ki, həmin qadının ləyaqətinin daha da itirilməsində iştirak edib. İsa Məsihin verdiyi sülhü və şəfanı əldə etmək üçün bu insan törətdiyi əməllərinə görə tövbə etməlidir, çünki onun hərəkətləri cinsi əlaqədə olduğu insanları yaralayıb. Allah ona deyə bilər ki, həmin qadınları axtarıb tapsın və onları incitdiyinə görə üzr istəsin.

Zina subay qız üçün böyük bir xəta gətirə bilər, onun nikahdan kənar uşağı doğula bilər. Qız və onun valideynləri üçün bu bütün həyatı boyu biabırçılıq, kədər və rüsvayçılıq ola bilər! Bu zaman kişi sakitcə öz əvvəlki günahlı həyatını yaşadıqca onun təqsiri ucbatından həmin qız da günahlı həyatını yaşamaqda davam edir. Neçə illər əvvəl Amerikanın bir jurnalında "Tənha ana" adlı uzun bir məqalə oxudum. Məqalənin böyük hissəsində yaxşı ailədən çıxmış qızlar barədə danışılırdı. Bunları oxuyanda adamın ürəyi parçalanır. Bir qız danışır ki, bir dəfə cavan oğlanla vaxt keçirdikdən sonra axşam ağılsızlıq edib onu öz mənzilinə qəhvə içməyə dəvət edir. Orada oğlan qızı məcbur edir ki, onun istəklərinə tabe olsun. Bundan sonra qız bütün gecəni stulda oturub acı-acı ağlayaraq keçirdi, oğlan isə məmnunluqla evinə qayıdıb yatdı. Mən həmin cavan oğlanın zavallı qıza, onun tərbiyəli ailəsinə vurduğu zərbəni aydın təsəvvür edirəm. Onlar bu kədərin və əzabın acısını uzun illər çəkəcəkdilər. Mən eşitmişəm ki, əyalətdə yaşayan qadınlar belə vəziyyətlərdən dünyaya gəlmiş uşaqlara "məhəbbət uşaqları" deyirlər. Əslində onları "şəhvət uşaqları" adlandırmaq lazımdır. Bədbəxtlik Allahın müqəddəs hesab etdiyi həqiqi məhəbbətin deyil, həmişə şəhvətin nəticəsidir. Belə vəziyyətlərdə valideynlər cavanları evlənməyə məcbur etsələr də, çox vaxt zədəni bütünlüklə bərpa etmək olmur. Belə nikahlar heç də həmişə xoşbəxt olmurlar. Çox vaxt valideynlər uşaqlarının xoşbəxtliyi üçün deyil, özlərinin rüsvay olmaması üçün

bunu istəyirlər. Amma əslində cavanlar günahkar insan kimi Rəbb İsanın yanına gəlib tövbə etməlidirlər. Onda Allahın məhəbbəti və lütfü bu günahkarların üzərinə gələcək, günahlar bağışlanacaq, Allahla sülh bərpa olacaq və Onun lütfündən danışılacaq. Əgər onlar səmimi qəlbdən Allahın istədiyini etsələr, onda Rəbb bütün vəziyyətləri yoluna qoyacaq. Beləcə O Öz adına izzət gətirəcək və minnətdar olan qəlblər Rəbbə alqış oxuyacaq. Allahın lütfünün bu problemləri yoluna qoyduğu hallar mənə məlumdur və bu zaman insanlar Ona izzət ilahiləri oxuyurdular: "Bizi sevən, Öz qanı bahasına bizi günahlarımızdan azad edərək bizdən bir padşahlıq təşkil edən və bizi Öz Atası Allah üçün kahinlər təyin edən Şəxsə əbədi olaraq izzət və qüdrət olsun!" (Vəhy 1:5–6)

Allahın lütfü başqa bir insanın da üzərinə gələ bilər. Bu yaranmış vəziyyətdə doğulmuş uşağa qarşı da günah edilib. O, qanuni atası olmadan böyüyür, bəzən heç atasını tanımadan "qeyri-qanuni doğulmuş" uşaq damğası ilə yaşayır. İnsan öz təbiətinə görə olduqca həssas bir varlıqdır. Bu günah nikahdan kənar doğulan uşağa təsir göstərərək onu psixoloji şikəst edir. Bu təsirlər həmin uşağa təkcə gəncliyində deyil, bütün həyatı boyu davam edə bilər. Mən elə adamlar tanıyıram ki, onlar valideynləri barədə biləndə psixoloji təsirlərə məruz qaldığına görə qanuni nikaha girməkdə çətinlik çəkirlər. Bu da unudulmuş amillərdən biridir. Kişi və ya qadın günahsız doğulan öz oğul və qızlarını incitdiklərinə görə Allah qarşısında dərindən tövbə etməlidirlər.

Əlbəttə, əgər uşaq övladlığa götürülübsə, onun həyatında belə psixoloji təsirlər azalır. Amma müasir cəmiyyətimiz tənha anaları qəbul etməyə daha çox meyl edir. Qeyri-qanuni doğulan uşaqları az hallarda övladlığa verirlər. Beləliklə, uşaqlarını özləri böyüdən tənha anaların sayı artır. Lakin gec-tez rüsvayçılıq hissi uşağı və ya gənci yaxalayır, onda inciklik hissi yaradır. Mən bunu ona görə demirəm ki, məsuliyyət daşıyan insanda vicdan əzabını və ya özünü təqsirləndirməni daha da artırım, əksinə o şəxsə kömək etmək istəyirəm. İnsan dərindən günahına görə tövbə

edəndə Allahın lütfü təkcə onun təqsirini yumaqla kifayətlənmir. Günahkarın səmimi tövbəsi incitdiyi insana da təsir edir. Günahkar insan Rəbbin ayaqları altında tövbə edirsə, "İsa üçün heç nə çətin deyil, Onun üçün mümkün olmayan heç nə yoxdur". O, insanın yarasını sağaltmağı və onu yenidən bərpa etməyi bacarır. Rəbb belə insana kömək edir ki, Onu öz Xilaskarı kimi qəbul etsin. Bundan sonra həmin insan valideynlərinin günahına görə əziyyət çəkməyəcək və özünü rədd edilmiş hiss etməyəcək. O, Allahı Ata kimi qəbul etdikdən sonra Məsihin varisi olacaq və keçmişi onun üzərində heç bir səlahiyyətə malik olmayacaq.

# 5

# Şişirdilmiş ikiüzlülüyün unudulmuş amili

Biz yuxarıda Davudun Bat-Şeva ilə etdiyi günahdan danışdıq. Bu günahı Allahdan və Davuddan başqa heç kim bilmirdi. Biz Natanın gəlişini gözləyirdik. O, Davuda unutduğu günahını xatırlatdı. Padşah öz əsgərlərindən birinin arvadını oğurladığı üçün Allah narahat idi.

Amma Natanın danışdığı hekayə burada tamamlanmır. Daha dəhşətlisi bu idi ki, varlı adam öz sürüsündən deyil, kasıbın yeganə quzusunu kəsmişdi. Bu da Davudun Bat-Şevanın əri Uriyanı öldürməsi demək idi.

Müqəddəs Kəlamı yaxşı bilməyənlər hesab edirlər ki, Davud Bat-Şevaya olan böyük məhəbbətinə görə Uriyanı aradan götürmüşdü. Amma Kəlamı diqqətlə oxuyanda aydın olur ki, Davudun hərəkəti daha acınacaqlı idi. Padşahın bu hərəkəti kiməsə olan məhəbbətinə görə deyil, özünü sevdiyinə görə idi. Hekayədə Bat-Şevanı öz həyat yoldaşı etmək üçün Davudun qızğın sevgisini göstərən heç bir səbəb yoxdur. Bu onun günahını heç olmasa bir az yüngülləşdirmiş olardı.

Hal-qəziyyə belədir. Əgər Bat-Şevanın hamilə olduğunu Davud bilməsəydi, padşah o qadınla keçirdiyi vaxtdan zövq alıb məmnuniyyətlə vəziyyəti olduğu kimi saxlayardı. Uriya neçə ay idi ki, döyüşdə idi. Əgər Bat-Şeva bu vaxt ərzində uşağı doğsaydı, sirr açılacaqdı və padşah Davud ifşa olunacaqdı. Vəziyyət gərgin

idi, çünki Musanın qanununa əsasən ər-arvad vəfasızlığı çox ciddi surətdə ittiham olunurdu. Qanuna əsasən belə halda qadına ölüm hökmü verilə bilərdi. Amma həmin dövrlərdə bu qanunun tez-tez icra olunub-olunmadığı məlum deyil. Davud izi itirmək üçün guya döyüşün gedişi barədə məlumat almaq məqsədilə Uriyanı döyüşdən geri çağırdı. Məlumat aldıqdan sonra Davud ona əmr etdi ki, öz evinə getsin və gecəni arvadı ilə keçirsin. Əgər Uriya bunu etsəydi, hamı düşünərdi ki, doğulacaq körpə Uriyanındır və bu da Davudun ürəyincə olardı. Amma Uriya o qədər sadiq əsgər idi ki, Davudun gözətçiləri ilə birgə padşah sarayının həyətində yatmağa üstünlük verdi. Ertəsi gün Davud ondan nəyə görə evinə getmədiyini soruşanda Uriya padşaha belə cavab verdi: "Əhd sandığı və israillilərlə yəhudalılar çardaqlarda qalarkən, ağam Yoavla ağamın zabitləri çöllərdə məskən salarkən mən yemək-içmək və arvadım ilə yatmaq üçün evimə gedimmi? Həyatına və canına and olsun, mən belə şey etmərəm" (2 Şamuel 11:11).

Öz günahını ört-basdır edə bilməyəndə Davud növbəti gecə başqa bir fənd işlədir. Uriyanı şam yeməyinə çağırır və onu içirdir ki, bundan sonra o, arvadına yaxınlıq etsin. Lakin Uriya yenə də bütün əsgərlər kimi gecəni həyətdə yatmağa üstünlük verir. Davud çıxılmaz vəziyyətə düşür və günahını örtmək üçün onun bir seçimi qalır. Padşah ordu başçısına əmr edir ki, Uriyanı döyüşün ən gərgin bölgəsinə göndərsin. O bilirdi ki, Uriya oradan sağ çıxmayacaq. Bundan sonra Davud Bat-Şevanı özünə arvad edə biləcəkdi və uşaq nikahda doğulacaqdı. Beləcə, heç kim onların nikaha qədər cinsi əlaqədə olduğunu bilməyəcəkdi. Beləliklə, bizim qarşımızda qəlb dağlayan bir mənzərə canlanır: sadiq əsgər öz ölüm hökmünü bağlı məktubda öz əlində aparır. Uriya artıq padşaha sadiqliyini sübut etmişdi və Davud bilirdi ki, sadiq əsgəri məktubu açıb orada yazılanları oxumayacaq. Bəlkə də onun oxumaq qabiliyyəti yox idi, çünki məktubu açsa da, oxuya bilməyəcəkdi. Hər şey plana əsasən getdi, heç kim ona mane olmadı. Növbəti döyüş zamanı ilk ölən Uriya oldu.

Davud bunu Bat-Şevaya olan sevgisinə görə etmədi. Qadın ona bir dəqiqəlik həzzdən başqa heç nəyə lazım deyildi. Padşah bu günahlı hərəkəti sadəcə qorxaraq öz nüfuzuna görə etdi. O özünü rüsvayçılıqdan azad etmək üçün başqa insanı öldürməyə hazır idi. Davud öz ad-sanına görə günahsız insanın həyatını qurbangaha qoydu. Hekayənin əxlaq baxımından bütün gizli mənalarında ikiüzlü və mənfur hərəkət var idimi? Hekayənin sonunu bildiyimiz üçün bizə bu aydındır, amma Davudun bundan xəbəri yox idi. O hər şeyi elə yaxşıca ölçüb biçmişdi ki, özünün əsl qatil olduğuna diqqət yetirməmişdi. Davud anlayırdı ki, pis iş görüb, cinsi əxlaqsızlıqla məşğul olaraq ehtiraslarına təslim olub, amma özünü qatil kimi görmürdü. Biz bunu Yoav Uriyanın ölüm xəbərini padşaha çatdıranda Davudun dediyi sözlərə əsasən söyləyə bilərik: "Bu hadisə sənin gözündə pis görünməsin, çünki qılınc gah birinin, gah da başqasının başını yeyir" (2 Şamuel 11:25). Peyğəmbər Natan bu günahı ona bildirməli idi və Davud bu haqda eşidəndə çox sarsıldı. Natan dedi: "Nə üçün Rəbbin gözündə pis olan işi etdin? Niyə Onun sözünə xor baxdın? Xetli Uriyanın arvadını özünə arvad etmək üçün onu qılıncla öldürtdürdün. Uriyanı Ammon övladlarının qılıncı ilə öldürtdürdün" (2 Şamuel 12:9).

Burada bizim qarşımızda digər unudulmuş amil var. Səhv cinsi münasibətləri ilə birlikdə olan bu amil ikiüzlülüyün şişirdilməsidir. İnsan günahda davam etdiyi və bunu gizlətdiyi üçün onu daha da böyüdür. Bunu Müqəddəs Kitab "günahı günaha qatırlar" (Yeşaya 30:1) adlandırır. Səhv cinsi münasibətlərə və əxlaqsız həyat tərzinə yalan, aldatma, hiyləgərlik, riyakarlıq və biclik də qoşulur. Bütün bunlar baş verənləri və ya baş verməkdə davam edənləri gizlətmək üçün işlənir. Eşitdiyimiz istənilən səhv cinsi münasibətlər ifşa olunana qədər yalan və aldatma torları ilə örtülmüş olur. Ola bilsin ki, Davudun bicliyi (bəlkə biz də padşahın yerində olsaydıq, elə edərdik) qədər biclik etməyək, amma valideynləri və həyat yoldaşını aldatmaqla biz də Allahın gözündə Davud kimi günahkarıq. Gəlin sizə sual verim: "Allah qarşısında buna görə

tövbə etmisinizmi? Əgər Allah bizə günahımızı göstərsə, onu yoluna qoymaq istəyəcəyikmi?"

İndiki dövrdə bizi vəziyyətdən çıxaran aldatma pis sayılmır. Amma Allah üçün bu belə deyil. Müqəddəs Kitab Allahın fikrini bildirir: "Allah nurdur və Onda zərrə qədər də qaranlıq yoxdur" (1 Yəhya 1:5). Əhdi-Cədiddə "nur" və "qaranlıq" sözləri sadəcə xeyir və şərin sinonimləri deyil. Nur hər şeyin həqiqi mahiyyətini aşkara çıxarır, qaranlıq isə hər şeyi gizlədir. Belə bir anlayış həmin ayəyə yeni məna gətirir. Bu ayə bildirir ki, Allah hər şeyin mahiyyətini aşkar edir, düşüncələrimizin və hərəkətlərimizin necə olduğunu göstərir və Ondan heç nə gizlətmək mümkün deyil. Biz Allaha yaxınlaşanda həqiqəti gizlətməməliyik. "Sənsə ürəkdə düzlüyün olmasını istəyirsən" (Zəbur 50:8). Qaranlıqda gəzən zaman bizim üçün bu fikir necə də yaddır. Bizim təbii reaksiyamız nura can atmaq deyil, ondan qaçmaqdır, çünki gizlədəcək çox şeyimiz var, "pislik edən hər kəs nura nifrət edər, əməllərinin üzə çıxmaması üçün nura tərəf gəlməz" (Yəhya 3:20). Əgər böyük bir daşı qaldırsaq, altında çoxlu sayda həşəratların deşik və yarıqlara soxulmağa çalışdığını görərik. Bu, qaranlığın varlıqlarıdır, ora onların evidir və işıq nüfuz edəndə onlar yenidən qaranlıqda gizlənirlər. İstər cinsi günahlar, istərsə də digər günahlar olsun, insan övladları ilə də belədir.

"O, nurda olduğu kimi biz də nurda" (1 Yəhya 1:7) gəzmək istəyriksə, "Allah nurdur və Onda zərrə qədər də qaranlıq yoxdur" deyilən fəsildə bizə heyranedici bir lütf vəd edilir. Bu, əlbəttə günahı gizlətməyin əksinədir. Əvvəlcə bizə "bir-birimizlə şəriklik" (1 Yəhya 1:7) vəd edilib. Bu o deməkdir ki, insanın günahı nə qədər ağır olsa da, onu gizlətməsə, Allahla həmişə ünsiyyət qura bilər. Bizim Allahla ünsiyyətimizdə müqəddəslikdən daha çox səmimilik tələb olunur. Əslində müqəddəsliyə doğru birinci addım günahlı olmağımızı etiraf etməyimizdir. Sadə həqiqət bundan ibarətdir ki, heç nəyi Allahdan gizlətməyən və səmimi olan insan üçün O hər şey edə bilər. Bundan başqa "bir-birimiz ilə şəriklik" ifadəsi həm

də digər insanlar ilə ünsiyyəti nəzərdə tutur, çünki maska taxan insan ilə həqiqi ünsiyyət qurmaq olmur. Əslində biz səmimi olmağa çalışanda insanlardan özümüzü təcrid etməyəcəyik.

Amma insana bu ünsiyyətdən əlavə başqa bir şey də vəd olunur. Ayənin axırında deyilir: "Onun Oğlu İsanın qanı bizi hər günahdan təmizləyir". Allahın önündə günahına görə dərin tövbə etmiş insanın qəlbi və vicdanı İsanın qanı ilə yuyularaq qardan da təmiz olur. Bu qiymətli qan Rəbb İsanın Qolqotada çarmıxda bütün mühakimələri Öz üzərinə götürdüyünü göstərir. Günahına görə vicdanı əziyyət çəkən və utanan insan üçün Allah Oğlunun çarmıxdakı qurbanı ilə hazırladığı təsəllidən yaxşı heç nə ola bilməz. Allah İsanı ölülərdən diriltdikdən sonra dünyanın günahlarının bağışlanması üçün Oğlunun etdiyi işdən məmnun qaldığını göstərdi.

*Əgər İsa günahlarımıza görə borcumuzu ödəməsəydi,*
*onda O heç vaxt azadlıq gətirə bilməzdi.*

İsanın qanı vasitəsilə biz köməyi və şəfanı əldə edirik. Çətin vəziyyətlərimizdə Allahın lütfünü hiss edirik, bu haqda sonra danışacağıq.

Burada qarşımızda daha bir unudulmuş amil — həmişə günahla birlikdə gələn böyümüş ikiüzlülük durur. Gəlin bu məsələlərdə tövbə etmək üçün Allahın lütfünün şəfa verən vədlərindən yararlanaq.

6

# Homoseksuallıqda unudulmuş amillər

İndi qarşımızda homoseksuallıq mövzusu durur. Yəni eyni cinsli insanlar, kişi ilə kişi, qadın ilə qadın arasında cinsi əlaqələr nəzərdə tutulur. Biz bu sahədə unudulmuş amilləri aydınlaşdıracağıq. Burada biz geniş yayılmış və əsasən tövbəyə ehtiyac olmayan, amma Allah qarşısında tövbə edilməli olan cəhətlərə diqqət yetirəcəyik.

Adətən kişi və qadın arasında olan cinsi əlaqəyə normal baxan insanlar homoseksuallıq barədə eşidəndə təbii olaraq buna iyrənc bir şey kimi baxırlar və bu barədə müzakirə etmək istəmirlər. Amma bu, şər cəmiyyətimizdə yayılır və mən narahatam ki, daha çox insanlar bu günahın girdabına yuvarlanırlar. Yəqin ki, onlar arasında bizim kömək etmək istədiyimiz insanlar var, ona görə də biz bu suala diqqət yetirməliyik. Əmin olun ki, mərhəmətli Allahın bu suala cavabı var və sadaladığımız o biri günahlar kimi bu səhv cinsi münasibətləri də Rəbb yoluna qoymağa qadirdir. Biz əminliklə deyə bilərik ki, Rəbb İsada hər homoseksual insan ümid tapa bilər.

Biz bunu deməliyik ki, indiki dövrdə belə hərəkətlər günah hesab edilmir. Ola bilsin ki, bir çoxları buna qeyri-təbii və ya anormal bir davranış kimi baxsa da, əlbəttə ki, bunu günah, yəni əxlaq baxımından bağışlanmayan bir hərəkət saymır. Amma bunu yaddan çıxarırlar ki, müqəddəs Allah belə davranışı ittiham edir. Bu da unudulmuş amildir. Əgər homoseksualın köməyə ehtiyacı varsa,

əvvəlcə o bunun günah olduğunu dərk etməlidir. Belə olmasa həmin insan heç vaxt bunu anlamayacaq.

İctimai rəyin dəyişilməsi belə baş verdi: əvvəlcə qanunverici orqanlar homoseksuallığı bir cinayət kimi qanunlar toplusundan ləğv etdilər. Düzdür, əxlaqın pozulmaması üçün müəyyən yaşa qədər belə münasibəti qadağan edən bəndlər saxlanıldı. Amma homoseksuallığın ləğv edilməsi belə təəssürat yaratdı ki, artıq belə davranış ictimaiyyət tərəfindən qəbul edilir. Bunlara əsasən demək olar ki, belə davranışlar günah hesab olunmur və hətta Allah da buna normal yanaşır. Belə baxışlar məsihçilərin də düşüncə tərzinə nüfuz edir.

Günah ilə cinayət arasında fərq olduğunu anlamalıyıq. Cinayət dövlətin qanunlarını, günah isə Allahın qanunlarını pozmaqdır. Dövlət insanların bütün hərəkətlərini idarə etmək və məhdudlaşdırmaq üçün yaradılmayıb, amma insanların bir-birinə, yəni cəmiyyətə pislik edə biləcəyi hər şey üzərində səlahiyyət daşıyır. Qalan işlərdə dövlət qanunları insana öz həyatını istədiyi kimi idarə etməyə imkan verir. Bu qalan işlər Allahın qanunlarına əməl etməkdən ibarətdir, insanlar həyatlarının hər bir anında düşüncələrinə və əməllərinə görə Onun qarşısında cavabdehdirlər. Əlbəttə, başqalarına zərər yetirə biləcək bütün hərəkətlər dövlət tərəfindən qadağan olunub. Amma Allahın qanunları dövlətinkindən daha dərindir və onlar daha geniş sahələri əhatə edir. Lakin elə hərəkətlər var ki, başqa insanlara zərər yetirməsə də, Allahın qanunlarının pozulması hesab olunur. Allah bu hərəkətləri səhv hesab etdiyi üçün onlar insan üçün zərərlidir. Şübhəsiz ki, bunun üçün Allahın səbəbləri var və insanın yaxşı həyat yaşaması üçün Onun qanunlarına əməl etməlidir. Ancaq biz Onun qanunlarını başa düşdüyümüz kimi itaət etməməliyik. Biz Allahın ali hakim olduğunu bilərək Ona tabe olmalıyıq.

Beləliklə, yer üzündə homoseksuallığı cinayət hesab etməmək barədə qanuna dəyişiklik edildi. Bunu insanların şəxsi şər əməli saydılar, onun cəmiyyətə zərər yetirmədiyini və dövlət nəzarətindən

kənarlaşdırmağı qərara aldılar. Homoseksuallara qarşı qanunun şəfqətli olması barədə mübahisələr yarandı. Homoseksuallığın cəmiyyət üçün zərərli olmadığını düşünmək asandır. Ona meyllik təkcə anadangəlmə, yəni insan təbiətinə xas deyil, lakin bir insanın digərini belə davranışa təhrik etməsidir. Kimisə belə davranışlarla tanış etmək onun təbii cinsi hisslərinin təhrif olunmasına gətirib çıxarır və beləliklə, onları qeyri-təbii yola, homoseksuallığa yönəldir. Nəticədə, belə insan xoşbəxt ailə həyatından və övladlardan məhrum ola bilər. Bu bədbəxtlik Sodom və Homorrada olduğu kimi cəmiyyətimizə yayılıb. Həmin şəhərlərdəki insanların anadangəlmə buna meylliyi olduğunu, belə doğulduğunu və bunun günah olmadığını təsdiqləmək olarmı? Şübhəsiz ki, homoseksuallıq bəşəri asılılığa çevrilənə qədər bir insandan o birisinə yayılıb. Əgər hər şey belə davam etsəydi, əhali azalardı və hətta kökü kəsilərdi, çünki normal ailələr qurulmazdı. Əgər bu davranış cəmiyyətə zərər yetirmirsə, onda nəyə zərər yetirir? Bəli, ölkəmizin qanunları müəyyən yaş həddinə çatmamış insanlar üçün bunu zərər hesab edir. Lakin bu münasibətlər yalnız həmin yaş dövrünə qədər olan insanları deyil, başqalarını da əxlaqsızlığa aparıb çıxara bilər.

Yaxşı, qoy cəmiyyətimiz homoseksuallığı cinayət hesab etməsin və özünü bundan qorumasın. Amma yaddan çıxarmayaq ki, bu günahdır. Allahın qanunlarını güzəştə getmək olmaz. Homoseksual insana Allahın köməyi lazımdırsa, o, ilk növbədə bunu günah adlandırmalıdır. Müasir psixiatriyanın insanlara dediklərindən fərqli olaraq bu məsləhət şəfqətsizlik kimi səslənə bilər. Lakin Müqəddəs Kitabın qoyduğu yol çox vaxt müasir düşüncələrlə üst-üstə düşmür. Biz kiməsə bunun günah olduğunu söyləyəndə onun daha çox vicdan əzabı çəkməsini deyil, azad olmasını istəyirik. Əgər homoseksuallıq günah deyil, sadəcə insan təbiətinin çatışmamazlığıdırsa, onda bu nöqsan sona qədər onunla qalacaq və bunu həll etmək olmaz. Onda biz yalnız onunla razılaşıb yaşamalıyıq. Bir psixiatr mənə demişdi: “Biz homoseksualı sağaldacağımızı söyləmirik, sadəcə bədbəxt homoseksualı xoşbəxt homoseksuala çevirə bilərik”. Necə

də dəhşətlidir! Əgər insan bunu günah hesab etsə, onda dünya onun üçün ümidlə dolacaq və onu günahlardan təmizləyən Xilaskarın olduğunu biləcək. Rəblə görüşmək üçün ən yaxşı yol insanın öz günahını etiraf etməsidir. Belə insan anlayır ki, onun üçün Məsihin qurtuluşu var və etiraf etdiyi hər günahı Rəbb bağışlayacaq.

Müqəddəs Kitab aydın bildirir ki, homoseksuallıq günahdır. Müqəddəs Kitab Allahın bu barədə fikirlərini bildirən yeganə kitabdır. Bu günahın geniş yayıldığı Sodom və Homorra şəhərlərinin aqibətini və Allahın onları tamamilə məhv etməsini misal göstərmək olar. Romalılara məktubda belə deyilir: "Həqiqətə haqsızlıqla əngəl törədən adamların hər cür allahsızlığı və haqsızlığı ucbatından Allahın qəzəbi göydən aşkar olur" (Romalılara 1:18). Allahın qəzəbini yaradan səbəblər bu ayədə göstərilir: "Onların qadınları təbii əlaqəni qeyri-təbii əlaqə ilə əvəz etdilər, eyni tərzdə kişilər də qadınla olan təbii əlaqədən əl çəkib bir-birlərinə şəhvətlə qızdılar; kişilər kişilərlə rüsvayçılıq edib öz daxillərində rəzilliklərinə layiq cəzanı aldılar" (Romalılara 1:26–27). Bundan əlavə Paulun korinflilərə dedikləri də bura aiddir. O deyir ki, belə hərəkət edənlər Allahın padşahlığına daxil olmayacaqlar. Başqa bir yerdə deyilir ki, "bunlara görə Allahın qəzəbi itaətsizlərin üzərinə gəlir" (Kolosselilərə 3:6). Beləliklə, günahdan azad olmaq istəyən homoseksual insan birinci anlamalıdır ki, belə etməklə o, Allahın qəzəbini gətirən işlərlə məşğul olub. Burada diqqətli olmaq və tövbə edilməli günahı anlamaq lazımdır. Əks təqdirdə biz yalana inanmış olacağıq. Homoseksuallığa meyl insanın təbiətindən irəli gəlir. Bir çoxlarında bu cinsi əlaqəyə meyllər normal, digərlərində isə təhrif edilmiş şəkildə olur. Cinsi meylləri təhrif olunmuş homoseksual insan adi insandan daha çox günahkar sayılmır. Əsas budur ki, belə insan öz cinsi əlaqəyə olan meyllərini necə idarə edir. Biri Allahın iradəsinə əks gedərək öz cinsi meyllərinə tabe olur, digəri isə cinsi meylləri ilə mübarizə aparır. Ona görə də zina və homoseksuallıq hər ikisi günahdır. Hər iki halda insan Allahın iradəsinə zidd olaraq öz istəklərinin ardınca gedir, sadəcə burada

cinsi meyllər fərqlidir. Əgər insan homoseksuallığa meyl edib istər ağlında, istərsə əməlində bu iyrənc istəyə tabe olursa, deməkgünah edır. Əgər insan homoseksuallıq istəyi ilə ciddi mübarizə aparıb ürəyindəki bu günaha görə İsaya tövbə edirsə, onda o, müqəddəsliyə doğru ilk addım atır. Bu necə də gözəl fikirdir — homoseksualıqdan müqəddəsliyə! Ona təklif olunan qurtuluş İsa Məsihdədir və bunu növbəti fəsildə nəzərdən keçirəcəyik.

İnsanlar təbiətcə cinsi pozğunluğa meylli olduqları üçün özlərini ittiham etməli deyillər. Bu meyl anadangəlmə ola bilər, gənc yaşlarından yarana bilər və buna görə onu təqsirləndirmək olmaz. Bu meyl sonradan qazanılmış da ola bilər. Homoseksuallıq insanın axmaq hərəkətlərinin nəticəsindən sonra da yarana bilər. Belə halda o özünü Allah qarşısında alçaldıb günahına görə tövbə etməlidir. Onda meyllik hələ qalsa da, amma təqsirlərindən tamamilə bağışlanacaq. İndi hər iki homoseksual insan öz istəkləri ilə mübarizə aparmadıqları, əksinə onlara tabe olduqlarını Allaha etiraf etməlidirlər. Onlar İsanın "günahlarımızı bağışlayacaq və bizi hər haqsızlıqdan təmizləyəcək" (1 Yəhya 1:9) vədlərinə inanaraq Ona yaxınlaşmalıdırlar. Bu o deməkdir ki, digər insanla olan homoseksual ünsiyyəti qırmalı və sınağa çəkilə biləcəyi hallardan qaçmalıdır. Onlar Allahdan təkcə təbii meyllərinin gətirdiyi sınaqlardan uzaqlaşmağı deyil, həm də bütün həyatları boyu bu mübarizədə qələbə çalmağı istəməlidirlər.

Günahlı hərəkətlərinə görə Onun qarşısında tövbə edənləri Rəbb azad edəcək, çünki biz günah etməyə başladığımızı hiss edəndə Onun yanına gəliriksə, İsanın qanı bizi təmizləyəcək. Mən Rəbbin şəfa verdiyi bu cür insanlarla tanışam, indi onlar xoşbəxt ailə qurublar və övladları var. Tanıdığım bəziləri isə ailə qurmasa da, bu sahədə qələbə çalıblar. Homoseksual insan hiss edir ki, normal cinsi həyatı yaşamağı bacarmır, ona görə də cinsi təhrifi özü üçün normal hesab edir. Adətən normal cinsi tələbatı olan insan belə düşünmür. Ola bilsin ki, normal insan hələ ailə qurmayıb və ya bunu hələ həyatda əldə etməyib ya da ki, heç vaxt əldə etməyəcək.

Amma belə insan hesab edir ki, xoşu gələn fərqli cinsdən olan insanla cinsi ünsiyyətə girməli deyil. O, cəmiyyətin hörmətli üzvü, yaxşı məsihçi olmaq üçün təbii meyllərindən imtina edir.

Homoseksual insanın belə sualı yarana bilər: "Bu o deməkdir ki, mən heç vaxt cinsi həzzi yaşamamalıyam?" Bəli, Allah onun təbii meyllərini dəyişənə qədər belə olmalıdır. Bir çox insanlar həyatlarında ailə qurmayıblar. Ola bilsin ki, onların seçimi olmayıb, ya da Allahdan olmayan insan ilə ailə qurmamağı daha üstün hesab ediblər. Lakin belə insanlar cinsi əlaqə olmadan da həyatdan razı qalıblar, ər və ya arvaddan daha çox İsa Məsihi birinci yerə qoyublar. Əgər sülh və azadlıq istəyirsinizsə, onda sizə Xilaskar kimi İsa Məsih lazımdır ki, həyatınızın qayğısına qalsın və qəlbinizi razı salsın. Əgər həyatınızda Məsih varsa, deməli sizin hər şeyiniz var. Öz istəklərinizdən imtina etdiyiniz üçün O sizə təsəlli və mükafat verəcək. Belə insanlar üçün qeyri-adi həyat və xidmət başlayacaq.

Belə bir sual yarana bilər: "Ola bilər ki, Allah təbii meyllərimi dəyişdirsin və mən daxilən daim mübarizə aparmayım?" Əlbəttə olar. O bir çoxları üçün bunu edib və indi onlar normal həyat tərzi yaşadıqları üçün sevinirlər. Amma siz bütün səhv istəklərinizi hər dəfə Rəbbin hüzuruna gətirib onlardan imtina etməyincə bu baş verməyəcək. Bundan sonra O sizin təbii cinsi meyllərinizdə ya dərhal, ya da tədricən dəyişiklik etməyə başlayacaq. Əgər Onun sizin üçün başqa iradəsi varsa, onda Onun göstərdiyi istiqamətlə gedin.

Mən cinsi təhrifə əvvəlcədən meylli olanlara demək istəyirəm ki, homoseksuallıqla məşğul olan insan düşünməsin ki, o, qatı homoseksualdır və ömrü boyu cinsi təhrifə meylli olaraq qalacaq. Son dövrlərdə bu sual psixiatr və qanunverici orqanlar arasında çox müzakirə olunub və belə insan özünü dərhal ümidsizlər sırasına daxil edə bilər. Yəni belə insan xoşbəxt ailə qura bilməyəndə rədd edilmiş birinə çevrilir. Belə insanlar ciddi cəhdlə meylli olduqları davranışlarla mübarizə aparırlar, amma sonda onlara təslim olurlar. Bəlkə də həmin qadın və ya kişi qatı homoseksual olmaya bilər.

Normal cinsi əlaqəyə meylli insan Allahın əmrinə qarşı gedib yeni cinsi əlaqə hisslərini yaşamaq üçün homoseksuallıqla məşğul olur.

Məsələ burasındadır ki, Allah homoseksuallığa fərqli bir ad vermir, sadəcə onu günah adlandırır və günahlı insana ümid vermək üçün qurtuluş yolunu göstərir. Dediyimiz kimi əgər bu günahdırsa, onda Məsih istənilən günahı bağışladığı kimi onu da bağışlayacaq. Müqəddəs Kitab homoseksual insanlara xüsusi şəfaya ehtiyacı olanlar kimi baxmır, sadəcə onların günahlarını o biri günahlar ilə birgə sadalayır. Yuxarıda Romalılara məktubdan gətirdiyim sitatda qadınlar təbii əlaqəni qeyri-təbii əlaqə ilə əvəz etdilər və kişilər də bir-birilərinə şəhvətlə qızdılar. Sonra haqsızlıq, pislik, tamahkarlıq, kin, paxıllıq, qatillik, münaqişə, hiylə ilə dolu və pis niyyətli allahsız insanlar haqda oxuyuruq. Bütün bunlar aydın şəkildə günahlar adlandırılır, buraya homoseksuallıq da aiddir. Əgər Rəbb İsa tamahkarlıq, kin, paxıllıq, qətl, münaqişə və hiylə günahından insanı yuyub təmizləyirsə, onda cinsi əlaqədən təbii surətdə istifadə etməyənləri də azad edir. Şükür Allaha ki, İsanın "bədəni çarmıxa çəkilərək" (1 Peter 2:24) günahımızı yuyub. Belə günahın çirkinliyini yumaq üçün "bir bulaq açılacaq" (Zəkəriyyə 13:1). Bu günahı Allaha etiraf etmək və bizi günahın çirkinliyindən yuyub azad etdiyinə inanmaq lazımdır. Günaha meyliniz əvvəldən və ya sonradan qazanılmış olsa da siz ya dərhal, ya da tədricən şəfa alacaqsınız.

Səhv cinsi münasibətlərin başqa formada olan unudulmuş amilləri də buraya aiddir: bu şişirdilmiş ikiüzlülük və xüsusilə digərlərinə qarşı etdiyimiz şər əməldir. Bunlarla məşğul olarkən insan öz əxlaqsızlığını digər insanlara da ötürür. Əgər bu qazanılmış bir şeydirsə, deməli belə insan başqa birinə bu səhv davranışı qazanmaqda kömək edib. O, digər insanın cinsi həyatını məhv etməklə onu xoşbəxt ailə həyatından məhrum edib. Bu hətta qatı homoseksuallar arasında baş versə də, hər ikisi bir-birinə qarşı etdikləri şər əməldə təqsirkardır. Elə homoseksual insan yoxdur ki, onu bərpa etmək mümkün olmasın.

Belə hallarda insan İsanın ayaqlarına düşməlidir ki, Onun şəfa verən lütfünün şirinliyindən dadsın. Əziz oxucu, hər unudulmuş amil barədə diqqətlə düşün, dərk et və onu Məsihə etiraf et. Siz özünüzü Onun qarşısında alçaltdıqdan sonra tez bir zamanda Rəbbin sülhünü əldə edəcəksiniz. Tanrının sülhü tədricən ürəyinizə daxil olacaq, siz bağışlanıb şəfa alacaqsınız və yenidən bərpa olunacaqsınız. Əgər Rəbb sizi səhv cinsi ünsiyyətdə olduğunuz digər şəxsin yanına aparmaq və ondan üzr istəməyinizi istəyirsə, onda O sizin şəfanızdan həmin adamın azadlığı və bərpası üçün də istifadə edəcək.

7

# İnsanın öz bədəninə şərəfsizlik gətirməsi haqqında

Mən bu fəsli kitaba daxil etməkdə tərəddüd edirdim. Bu, insanın səhv cinsi münasibəti vasitəsilə özünə vurduğu zərərdir. Adətən insanlar bu zərəri və hərəkətləri ilə özlərinə gətirdikləri bədbəxtlikləri yaxşı dərk edirlər və vurulan ziyanlar müxtəlif olur. Bu cür insan günahı gizlədəndə təmiz vicdanını itirə bilər. Belə insan hətta bütün xoşbəxtliyini itirib ən əzablı və çətin vəziyyətləri yaşaya bilər. Onların özlərinə vurduqları belə zərər unudulmuş amil deyil. İstənilən vəziyyətdə belə düşüncələrə əsaslanmış tövbə xudbin səbəblərdən yarana bilər. Ona görə də belə tövbə adətən səmərəsiz olur. Bu barədə bir az yazmağı lazım bildim.

Ümumiyyətlə, müəyyən unudulmuş bir pislik var ki, insan səhv cinsi münasibətlər ilə özünə ziyan vurur. Belə insan Allahdan bağışlanma və şəfa istəyəndə bu, asanlıqla yoluna düşür. Bu günahı insanın öz bədəninə gətirdiyi şərəfsizlik kimi müəyyən etmək olar.

Hər şeydən əvvəl biz Əhdi-Cədidin bədənlərimiz barədə yüksək səviyyədə qeyd etdiyini anlamalıyıq. Paul deyir: "Məgər bilmirsiniz ki, bədəniniz Allahdan aldığınız, sizdə yaşayan Müqəddəs Ruhun məbədidir?" (1 Korinflilərə 6:19). Əgər insan öz günahına görə tövbə edib İsanı öz Xilaskarı kimi qəbul etsə, onun qəlbi Məsihin qanı ilə təmizlənəcək və Müqəddəs Ruh orada yaşayacaq. Paul istəyir ki, biz Müqəddəs Ruhun, üçüncü Üçlüyün bizdə yaşamasının necə möcüzəli olduğunu dərk edək. Bizim bədənlərimiz Onun

məbədi olmaq üçün təyin edilib, ona görə də biz müqəddəsik və Yerusəlimdəki qədim məbəd kimi Allahın istifadəsi üçün ayrılmışıq. Bu hətta imansız insana da aiddir, lakin onun bədəni hələ Müqəddəs Ruhun məbədi deyil. Gunahkar adamın Məsihi öz Xilaskarı kimi qəbul etməsi üçün həmişə imkan var. Bundan əlavə günahkarın xilası üçün artıq Məsih Öz qanı ilə ödəyib və hələ o, qəlbini Rəbbə verməsə də, bədəninin hərəkətləri Məsihə məxsusdur.

Bədənimizdən istənilən səhv qaydada istifadə etmək Allahın məbədinin dağıdılması deməkdir, bununla ən ciddi cəzalar əlaqəlidir. “Kim Allahın məbədinə ziyan vursa, Allah da ona ziyan vuracaq. Çünki Allahın məbədi müqəddəsdir və bu məbəd sizsiniz” (1 Korinflilərə 3:17). Hər cür səhv cinsi münasibətlər Allahın məbədinin dağıdılması və Onun məbədindən lazımi məqsədlər üçün istifadə etməməkdir. Allaha səcdə üçün yaranmış bədən şeytana səcdə etmək üçün istifadə olunur. Bu necə də iyrənclikdir! Görün biz öz bədənlərimizi necə murdarlayırıq. Dəqiq müasir söz bədəni zorlamaqdır. Təsadüfi deyil ki, masturbasiya üçün tanış və köhnə ifadə özünə zorakılıqdır. Ola bilsin ki, bu söz daha sonralar texniki sözlə əvəz olunub, çünki insanlar etdikləri hərəkətin əsl təbiətinin onlara xatırlanmasını istəmirlər. Əgər insan öz cinsi aludəsinə təslim olursa, onda o, bədənini nə Allahın, nə də təbiətin onun üçün nəzərdə tutduğu məqsədlər üçün istifadə etmir.

Paul başqa bir ayədə də bədənimiz barədə yüksək danışır. O söyləyir ki, ətraflar bədənə bağlandığı kimi imanlı insan da Müqəddəs Ruh vasitəsilə Məsihə birləşir. Məsih başdır, biz isə Onun üzvləriyik, Rəbbə bağlanmışıq və Onun həyatı bizi doldurur. Cinsi əlaqədən səhv istifadə edilməsi barədə Paulun işlətdiyi bənzətməyə diqqət yetirin: “Bilmirsiniz ki, bədənləriniz Məsihin üzvləridir? İndi Məsihin üzvlərini götürüb bir fahişənin üzvləri edimmi? Əsla! Bilmirsiniz ki, fahişə ilə birləşən onunla bir bədən olur? Çünki deyilmişdir: ‘İkisi bir bədən olacaq’. Rəblə birləşənsə Rəblə ruhən bir olur” (1 Korinflilərə 6:15). Kişi şübhəli nüfuzu olan qızın mənzilinə və ya fahişəxanaya gedəndə o, Məsihin üzvləri olan

qiymətli bədənini alçaldıcı tərzdə şərəfsiz qadının bədən üzvləri ilə birləşdirir. Beləliklə o, Allahın nəzərdə tutduğu ali və müqəddəs məqsədləri tamamilə təhrif edir.

Özünə zorakılıq və fahişəlik barədə deyilənlər əxlaqsızlığın digər formalarına, homoseksuallıq və pozğunluğa da aiddir.

Paulun bu haqda dediklərinə fikir verin, onun sözləri yuxarıda deyilənləri yekunlaşdırır: "Cinsi əxlaqsızlıqdan uzaqlaşın. İnsanın etdiyi bütün digər günahlar bədəndən kənardadır, amma əxlaqsızlıq edən öz bədəninə qarşı günah edir" (1 Korinfilərə 6:18). Burada aydın bildirilir ki, səhv cinsi münasibətlərdə biz Allahın məbədini və Məsihin bir hissəsi olan bədənimizi rüsvay edirik. Zinakar öz bədəninə qarşı günah edir.

Gəlin, bu günaha görə tövbə edək və bədənimizə qarşı şərəfsizlik etdiyimizi Allaha etiraf edək. Özümüzü ruhlandırmaq üçün Müjdədən bu ayəni yadımıza salaq: "Rəbb İsanın lütfü budur ki, əxlaqsızlığa görə tövbə edən insan dərhal bağışlanır". Zina edərkən tutulmuş qadına İsa belə dedi: "Mən də səni məhkum etmirəm, get, daha günah etmə" (Yəhya 8:11). Amma Onu ittiham etməyə çalışan ikiüzlü fariseylər öz günahlarının qaranlığında qaldılar.

Sizi ruhlandırmaq üçün demək istəyirəm ki, Korinf kilsəsindəki bir çox məsihçilər əvvəllər belə günahlar etmiş imanlılar idilər. Paul deyir: "Məgər bilmirsiniz ki, haqsızlıq edənlər Allahın Padşahlığını irs olaraq almayacaq? Aldanmayın, çünki əxlaqsızlar, bütpərəstlər, zinakarlar, fahişə kişilər, kişibaz kişilər, oğrular, tamahkarlar, əyyaşlar, böhtançılar, soyğunçular Allahın Padşahlığını irs olaraq almayacaq". Bunları dedikdən sonra o əlavə edir: "Sizlərdən bəzisi belə idi. Amma (nə yaxşı ki, "amma") Rəbb İsa Məsihin adı ilə və Allahımızın Ruhu ilə yuyulub təmizləndiniz, təqdis olundunuz və saleh sayıldınız" (1 Korinflilərə 6:9–11). Korinfdəki kilsə ər-arvad vəfasızlığı ilə məşğul olanlar, zinakarlar, homoseksuallar, oğrular və içki düşkünləri olan yeni imanlılardan ibarət idi. Bəs niyə belə idi? Əslində kilsə Allahın lütfü ilə xilas olmuş günahkarlardan ibarətdir.

Amerikanın məsihçi kolleclərindən birində gənc bir oğlan çox məyus halda mənə yaxınlaşdı. Mənə Müqəddəs Kitabdan bu ayəni “kişibaz kişilər... Allahın Padşahlığını irs olaraq almayacaq” (1 Korinflilərə 6:9–10) göstərərək dedi: “Bu mənim haqqımdadır. Mən belə vəziyyətdə Allahın padşahlığına girə bilməyəcəyəm”.

Mən ona dedim: “Amma sən belə vəziyyətdə qalmamalısan”. Sonra ona növbəti ayəni oxudum: “Sizlərdən bəzisi belə idi. Amma ...yuyulub təqdis olundunuz və saleh sayıldınız”. İsanın qarşısında dərindən tövbə edin, O sizin üçün vəziyyəti dəyişəcək və siz böyük lütf ilə xilas olmuş günahkarlar qrupunun üzvü olacaqsınız.

8

# Allaha gətirdiyimiz fəryad edən pislik

İndi biz səhv cinsi davranışın gətirdiyi böyük pisliyə nəzər salacağıq. Çox vaxt unudulan bu şər əməl Allaha qarşı günahdır. Davud bu günahına görə tövbə etdi və məzmurda o bunu belə qeyd edir: "Sənə, yalnız Sənə qarşı günah işlətmişəm, gözündə pis sayılanı etmişəm" (Zəbur 51:4). Amma Natan onun yanına gələnə qədər Davud bunu dərk etməmişdi.

Bu iyrənc hadisə barədə ətraflı danışıldıqdan sonra fəslin sonunda biz sadə, amma dərin mənası olan bu sözləri oxuyuruq: "Lakin Davudun gördüyü bu iş Rəbbin gözündə pis idi". Bunu oxuduqdan sonra insan rahatlanır ki, günahsız insana edilmiş pislik üçün əxlaqın ali hakimi var. Bəs Rəbbin bu narazılığı nədən ibarət idi? Qanunları pozulmuş qanunvericinin narazılığı adi bir şeydir? Bəlkə Allah yalnız Özü belə hərəkətlərə görə əziyyət çəkir? Mən sonuncu fikirlə razıyam. Natan Davuda etdiyi günahı bildirənə qədər Davud onu dərk etmirdi.

Natan Davudun Allaha qarşı etdiyi günahı belə açıqladı: "İsrailin Allahı Rəbb belə deyir: 'Mən səni İsrailin üzərində padşah olaraq məsh etdim və səni Şaulun əlindən qurtardım. Sənə ağanın evini verdim. Ağanın arvadlarını qoynunda yatırıb İsraillə Yəhuda nəslini sənə verdim. Əgər bu sənə azlıq edirdisə, Mən sənə daha nələri, nələri əlavə edərdim. Nə üçün Rəbbin gözündə pis olan işi etdin? Niyə Onun sözünə xor baxdın? Xetli Uriyanın arvadını

özünə arvad etmək üçün onu qılıncla öldürtdürdün'" (2 Şamuel 12:7–9). Natan Allahın Davuda etdiyi çoxlu yaxşılıqları sadaladı! Davuddan başqa heç kim Rəbbin ona qarşı necə xeyirxah olduğunu bilmirdi. Natan ona xatırlatdı ki, Davud bir vaxtlar heç kimin tanımadığı gənc çoban və ailəsində ən kiçik övlad idi. Amma o, Allahın lütfü ilə İsrailin növbəti padşahı olmaq üçün seçildi və ailəsinin qarşısında Şamuel tərəfindən məsh olundu. Bu sözlər Davuda xatırlatdı ki, o neçə illər padşah Şaulun nifrət və paxıllığına dözmüşdü, ölüm ona çox yaxın olsa da, Allah hər dəfə onu xilas etmişdi. Natanın sözləri onun yadına saldı ki, Davud cavan yaşlarında təqib olunarkən əvvəlcə Yəhuda, sonra isə bütün İsrailin padşahı olmuşdu. Bütün bunları əldə etmək üçün Davud heç barmağını belə tərpətməmişdi. O bunları Allahın lütfü ilə qazanmışdı. Natan ona Allahın verdiyi bütün zənginliyi göstərdi. Padşahın kifayət qədər arvadları da var idi. Daha sonra ona deyilir ki, (ona edilən yaxşılıqlar sadalandıqca yazıq Davud başını daha da aşağı əyirdi) bu qədər xeyirxahlıqlar ona az görünsə də, Allah ona daha çox şeylər vermək istəyirdi. Davud bilirdi ki, Allah heç kimə qarşı belə səxavətli olmayıb.

Sonra onun qəlbinə təsir edən sözlər səsləndi: "Nə üçün Rəbbin gözündə pis olan işi etdin?" (2 Şamuel 12:9). Başqa sözlə, O sanki belə dedi: "Sənə bu qədər yaxşılıqlar edildiyi bir halda nə üçün qadağan olunmuş meyvəni dərdin, başqasının arvadını arzuladın? Elə bil ki Mən sənə yaxşı şeyləri vermək istəmirəm. Sanki Mən sənin xoşbəxtliyin üçün nə lazım olduğunu bilmirəm və Mən səni sevmirəm". Biz bu sözlərdə Allahın fəryad səsini eşidirik, çünki burada Davudun öz günahı ilə Allaha necə ağır təsir etdiyi qeyd olunur. Bu, Davud üçün son damla idi. O artıq günahını gizlətməyib bəhanə gətirmədi və özünü müdafiə etmədi. Həmin an o, Allah qarşısında üzüstə yıxılıb ən vacib sözləri söylədi: "Mən Rəbbə qarşı günah etdim" (2 Şamuel 12:13). Davud bağışlandıqdan sonra öz məzmurunda günahı, eləcə də Allahın əfvini və düşüncələrini təsvir edir.

Əgər insan diqqətlə baxsa səhv cinsi münasibətlərdə çox vaxt Allahın lütfünü görəcək. Allahın günahkar kişi və qadınlara xeyirxah və səxavətli olduğu vəziyyətlərdə belə onlar bu günahları edirlər. Allah insanlara qarşı necə də səxavətlidir! Nikahda olmayan gənc qızlara və oğlanlara nə qədər yaxşılıqlar olunub. Allah onlara gözəl valideynlər, xoşbəxt ailə, uğur, parlaq gələcək və kim bilir, daha hansı gözəl şeyləri verməyi planlaşdırırdı. İnsanlar Rəbbi tanısalar da, tanımasalar da Onun xeyirxahlığı bütün yaratdıqlarına paylanır. Cavan oğlan və ya qız yetişməmiş meyvəni dərməli deyildilər. Allahın onlara vermək istədiyi hər bir şeyi əldə etmək üçün sadəcə gözləməli idilər. Onlar həyatları üçün sevimli insanı, evi, xoşbəxt ailəni, cinsi istəklərinin tam razı salınmasını və bütün bunları kədər və təqsir hissi olmadan əldə edəcəkdilər. Amma bu insanlar qadağan olunmuş meyvəni vaxtından əvvəl dərirlər. Onların fikrincə, bu fürsətdən istifadə etməsələr, onda Allah onların qızğın həvəslə istədiyi şeyi verməcəyək. Belə etməklə biz Allaha qarşı çıxırıq. Bu həm nikahda olanlara, həm də nikahda olmayanlara aiddir. Onlara səxavətli Allah tərəfindən çoxlu yaxşılıqlar olunub: ər və ya arvad, uşaqlar, sevinc, ailə rahatlığı verilib. Heç kim ailənin dağılacağını düşünmür, amma bu baş verir. Bu o demək deyil ki, Allah onlara səxavətlə başqa şeyləri verməyəcəkdi. Lakin insanın Allahın xeyrixahlığına imansızlığı və tamahkarlığı buna gətirib çıxardı. İnsanlar qadağan olunmuş meyvəni gizlətdilər və bundan savayı Allahı incitdilər.

Əcdadlarımızı ilk günahı törətməyə təhrik edən şeytan da belə etmişdi. O dedi: "Doğrudanmı, Allah sizə 'bağda olan heç bir ağacın bəhrələrindən yeməyin' deyib?" Belə deməklə şeytan onların diqqətini başqa ağaclardan yayındırdı. Onlar üçün yeməyə orada bol bərəkətli ağaclar olsa da, qadağan olunmuş meyvə diqqətlərini çəkdi. Düşmən bunu dəfələrlə təkrarladı (şübhəsiz ki, bu şirnikləndirmələr israrla davam etmişdi, nəhayət, onlar hər tərəfdən məhdudiyyət içərisində olduğunu düşünmüşdülər). Adəm və Həvvanın qadağan olunmuş meyvəni yeməsi üçün şeytan çox

səy göstərdi. Metyu Henri bunu şərh edərkən gözəl tərzdə belə ifadə etmişdi: "İblis bütün var-gücünü sərf etdi ki, insanın diqqətini qadağan olunmuş meyvəyə çəksin və onlar Allahın tapşırığını unutsun. Burada Allahın qanunu yanlış təqdim edilirdi".

Sizcə bu, şeytanın hamımız üçün olan üsulu deyilmi? O, Allahın bizə verdiyi yaxşı şeylərdən diqqətimizi yayındırır və qadağan olunmuş şeyə diqqətimizi çəkir. Biz heyranlıqla xoşumuza gələn insanlara baxırıq və onlar barədə düşünürük. Amma belə etməyimizlə günah etmiş oluruq. Beləcə şeytan diqqətimizi qadağan olunmuş şeylərə çəkir və sanki hər tərəfdən bizi məhdudlaşdıran qanunlara qarşı üsyan edirik. Allahın bizə verdiyi bol bəhrələri unuduruq.

Şeytan qadağaların düzgün olmadığını və bizi məhdudlaşdırdığını dedi və Allaha qarşı böhtan yağdırmaqda davam etdi. O dedi ki, bu ağacın meyvəsindən dadmamağınız üçün Allahın Öz səbəbləri var. Ağacın "Xeyir və Şər" adından istifadə edərək dedi: "Əksinə, Allah bilir ki, o meyvələrdən yediyiniz gün gözləriniz açılacaq və xeyirlə şəri bilərək Allah kimi olacaqsınız" (Yaradılış 3:5). Başqa sözlə, şeytan dedi: "Allah istəmir ki, həmin ağacın meyvəsindən yeyəsiniz, çünki çox şey biləcəksiniz. Tanrı Onun kimi allahlar olmağınızı istəmir, çünki O sizi Özündən asılı saxlamaq istəyir. Allah sizin üçün ən yaxşı şeylərin olmasını arzulamır. Yaxşı olar ki, siz hər şeyi özünüz idarə edəsiniz." Düşmən müasir dünyada sanki kommunist təşviqatçısı rolu oynayır, amma bu daha böyük və təhlükəli bir roldur. Həvva Allaha qarşı çıxana qədər şeytan ona bu sözləri dedi. Qadın düşündü ki, iblisin təklifini həyata keçirib sadəcə özünə bəraət qazandıra bilər. Müqəddəs Kitab necə də müasirdir! Görün, bu hadisə nə qədər fəlakətlərə gətirib çıxardı. Cinsi münasibətlərdə təcrübəsi olmayan qız düşünür ki, təkid edən kişinin təklifindən istifadə etməsə, təcrübəsi olmayacaq. Qız fikirləşir ki, həyat ona qarşı ədalətli olmayıb. Allah başqalarına verdiyini ona verməyib və elə görünür ki, Allah onu yaddan çıxarıb. Yaxşı olar ki, özü bu işi yoluna qoysun. Bu sözləri homoseksuallar və heteroseksuallar üçün də demək olar.

İnsan günah edəndə ən çox Allah əziyyət çəkir. O, insanların düşündüyü kimi fikirləşmir. Allah insanlara onların düşündüyündən daha çox vermək istəyir. Amma insanlar Onun məhəbbət hədiyyəsini korladılar. Məsələn, bir nəfər işgüzar səfərdən evə qayıtdıqdan sonra görür ki, kimsə həyat yoldaşını və uşaqlarını ona qarşı çıxarıb. Ailə üzvləri onun yanına gəlmək əvəzinə ondan qaçırlar, hətta əllərinə dəyənək götürüb kişini vurmaq istəyirlər. Ümumiyyətlə, belə təsvirləri verməyə ehtiyac yoxdur. Bir dəfə mən bir evdə qaldım. Ailədəki iki uşaq qorxurdular ki, valideynləri onlara kifayət qədər yemək verməyəcək. Uşaqlar buna çox inanırdılar, yəqin ki, belə hal bir psixoloji pozğunluq idi. Hər dəfə yemək vaxtı gələndə uşaqlar narahat idilər ki, onlar üçün yemək bişirəcəkdilər, yoxsa yox. Uşaqlar mətbəxə gedirdilər ki, analarının yemək bişirdiyinə əmin olsunlar. Buna baxmayaraq şübhələnirdilər ki, anaları onlara yemək verməyəcək. Bu uşaqların valideynləri həqiqətən də əziyyət çəkirdilər! Belə güman etmək olardı ki, əgər hər şey belə davam etsə, uşaqlar bir dəfə valideynlərinə qarşı nəsə pis hərəkət edəcəkdilər. İnsanlar şeytanın fikirlərinə meylli olanda və hər şeyi öz əllərində saxlamağa çalışanda Allaha qarşı necə də pis hərəkət edirlər.

Sizcə bu günah səhv cinsi münasibətlərdə başqa unudulmuş amil deyilmi? Allaha və Onun xeyirxahlığına qarşı edilən pislik çox vacib bir amildir. Əgər insan Allahla yenilənmiş sülhü əldə etmək istəyirsə, onda o, Davud kimi Allah qarşısında özünü tam alçaldıb belə deməlidir: "Sənə, yalnız Sənə qarşı günah işlətmişəm, gözündə pis sayılanı etmişəm" (Zəbur 51:4).

Cənab H.B. Beyker gözəl tövbə himni yazıb.

*Allah məni Özü üçün yaradıb ki,*
*Pak məhəbbətlə, övladın ataya*
*hörməti ilə Ona xidmət edim,*
*indi Rəbbi izzətləndirərək və Onun üçün zəhmət çəkərək*
*Sonra mələklərin baş əydiyi yerdə Onun izzətini görüm.*

*Mənə lazım olan lütf Atanın əziz Oğlu*
*vasitəsilə bütünlüklə mənimki olub*
*Məsihin həyatı və ölümü mənə xilas gətirib*
*Məni möhkəmlədən və öyrədən həmin lütf*
*Etdiyim işə görə mənə mükafat verib.*

*Amma mən bədbəxt günahkar bütün bunları rədd etdim*
*və hər günün qayğıları,*
*çətinlikləri və zövqü ilə yaşadım.*
*Sanki Məsih Öz qiymətli qanını tökmədi,*
*Sanki Allahıma heç bir borcum yox idi.*

*Müqəddəs Ruh, Öz ilahi alovunla*
*Mənim naşükür ürəyimi göz yaşlarında ərit,*
*Bir vaxtlar nifrət etməyi sevirdim*
*Nə qədər ki gec deyil Allah üçün yaşamağı mənə öyrət.*

Siz bu sözlərdə Allahın xeyirxahlığına, bəşər üçün hazırladığı ali məqsədlərinə qarşı günah işlətdiyini anlayan insanın hönkürtüsünü eşidirsinizmi? Ola bilsin ki, siz özünüz Rəbbə qayıdaraq bu sözləri deyəcəksiniz.

9

# Heyranedici lütf — qarışıqlıq aradan qaldırıldı!

Allahın günahkarlarla dost ünsiyyətində məqsədi onları ittiham edib məhv etmək deyil, əksinə onlara şəfa və xilas verməkdir. Rəbb İsa bütün sahələrdə olduğu kimi cinsi münasibətlərdəki və ya istənilən başqa problemləri məharətlə yoluna qoyur. Əslində Rəbbin bağışlamaq, şəfa və azadlıq işi o qədər böyükdür ki, biz tövbə edəndən sonra əvvəlkindən daha yaxşı xeyir-dualar alırıq. Ona görə də bizdə təəssüf hissi, peşmançılıq, "kaş başqa cür olardı" kimi fikirlər olmayacaq, çünki lütflə əldə etdiyimiz şəfa tam və kamil olacaq. Biz geriyə baxanda görürük ki, İlahi Dulusçu bizim xarab etdiyimiz həmin qabı başqa qaba çevirib, "Palçıqdan düzəltdiyi qab əlində xarab olanda dulusçu öz istədiyi kimi palçıqdan başqa bir qab düzəldirdi" (Yeremya 18:4) və belə etməklə Tanrı Özünə bol izzət gətirirdi. Hər göz yaşımız silinəcək və biz ancaq Ona izzət ilahisi oxuyacağıq. İndi biz göz yaşlarımızı silib izzət ilahimizi oxuya bilərik.

*Satın alınmış, şəfa almış,*
*yenidən doğulmuş, bağışlanmış*
*Bir insan Səndən başqa kimə izzət oxusun?*

"Qarışıqlıq yaradan günahkarı bağışlayan və qarışıqlığı aradan qaldıran" lütf Davudun hekayəsində daha aydın görünür. Müqəddəs

Kitabda məqsəd təkcə ağır günahla özünü ləkələmiş padşah barədə danışmaq deyil. Burada məqsəd heyranedici tərzdə padşaha şəfa verən və onu bağışlayan Allahı göstərməkdir. Əslində lütfün şəfa verən gücü böyük idi və kilsə üçün rüsvayçılıq sayılan zina, dahi məzmurçunun günahı məhz lütf vasitəsilə örtüldü. Davudun nümunəsi tövbə edən günahkarı ruhlandıraraq ona ümid verir. Davud 32 və 51-ci Zəburlarda hisslərini tam ifadə edə bilmişdi. Mən Davudun yeni yazdığı məzmuru ilahi oxuyana necə təqdim etməsini xəyalımda canlandırıram: "Bunu insanlara öyrədin və məbəddə oxuyun. Qoy bütün dünya mənim kimi günahkara Rəbbin verdiyi lütf haqqında bilsin". Allahın lütfü bizim çatışmamazlıqlarımızı ləyaqətə çevirməkdə davam edir. Əgər axıra qədər bu yolda möhkəm qalsaq və Allahın məqsədlərinə xidmət etsək, onda digər günahkarlar bizim həyat nümunəmizə görə İsa Məsihi qəbul edəcəklər.

Burada ilk nəzərəçarpan fakt Davudun hər şey barədə dərindən tövbə etməsidir. Natan ona Allahın fikrini çatdıran kimi padşah peyğəmbərin qarşısında heç bir bəhanə gətirmədən özünü alçaltdı və dedi: "Mən Rəbbə qarşı günah etdim" (2 Şamuel 12:13). Davudun dərindən tövbə etdiyini bağışlanmış günahkar barədə yazdığı məzmurundan görmək olar. O istəyirdi ki, şəhadətini məbəddə oxusunlar. Davuddan əvvəlki padşah Şaul peyğəmbər Şamuelin qarşısında belə demişdi: "Günaha batdım". Amma sonra əlavə etmişdi: "Rica edirəm, indi xalqımın ağsaqqalları və İsrail qarşısında mənə hörmət et" (1 Şamuel 15:30), yəni "qoy heç kim bilməsin, mənimlə birgə dini ayini yerinə yetir". Davud isə belə etmədi. O istəyirdi ki, onun günahkar olduğunu və Allahın ona lütf verdiyini xalq bilsin. Həm də 50-ci Zəburda etdiyi dərin tövbəsində Davud əvvəlki fikrini, "çünki qılınc gah birinin, gah da başqasının başını yeyir" (2 Şamuel 11:25) daha xatırlatmır. Əksinə o yazır: "Ey Allah, məni azad et, qan tökmək təqsirindən məni qurtar" (Zəbur 51:14). Padşah öz günahını qətl adlandırır. Şübhəsiz ki, ətrafında olanların çoxu Davudun tərəfini tutub bunun qətl olmadığını təsdiqləyərdilər. Amma indi Davud Allah qarşısında özünü alçaldanda daha özünü

müdafiə etmir. O özünü qatil adlandırır və bütün dünyanın Hakimindən ölüm hökmünün ləğv olunmasını xahiş edir.

Belə sual yarana bilər ki, Davud Allahla səmimiliyi necə əldə etdi? Bunu demək olar ki, padşah onunla söhbət edən Allahı yaxşı tanıyırdı və bilirdi ki, O, mərhəmətli, qəlbiyumşaq və bağışlayandır. Davud belə lütfün qarşısında özünü arxayın hiss edib günahlarını bütünlüklə Allaha etiraf edə bilər. Tezliklə ona cavab gəldi: "Rəbb sənin günahını sildi, ölməyəcəksən" (2 Şamuel 12:13). Natan sanki dedi: "Sən tövbə edib özünü təqsirkar saymaqla günahı üzərindən götürdün, yəni günahından döndün. Rəbb də belə etdi. İndi hesab etmək olar ki, sən bu günahından həmişəlik azadsan".

*Allahın belə xeyirxahlığı insanı heyran edir.*
*Bu necə də misilsiz bir səxavətdir!*

Davudun günahı baş verəndən sonra onu ciddi cəzalar gözləyirdi. Amma padşah bağışlanmış insan kimi Allahla ünsiyyətdə bütün çətinliklərdən keçir və Onun təsəllisini, dəstəyini əldə edir.

Biz də Davud kimi tövbə etsək, Allahın lütfü həyatımızda belə iş görəcək. Əslində biz lütfü daha yaxşı başa düşürük, çünki biz hələ günahda ikən Allah Öz Oğlunu çarmıxa göndərdi. Rəbb İsanın önündə özümüzü alçaldıb tövbə edəndə bu sözləri eşidirik: "Rəbb sənin günahını sildi". Q. Kempell Morqan Müqəddəs Kitabın şərhlərində yazır: "İnsan səmimi tərzdə günahını etiraf edəndə onu üzərindən kənarlaşdırır və Allaha imkan verir ki, günahını həyatından silsin. Allah hər zaman insanın günahını silə bilər, lakin günahkar tövbə edib özünü mühakimə etdikdən sonra bu baş verir".

Biz həqiqətən də inanmalıyıq ki, əgər Allah bizim günahlarımızı silibsə, deməli onlar həqiqətən ləğb olunub. "Nə qədər şərq qərbdən uzaqdırsa, qanunsuzluqlarımızı bizdən o qədər uzaqlaşdırıb" (Zəbur 103:12). Şərqlə qərb arasında məsafə böyükdür, onu ölçmək çətindir. Rəbb də insanın tövbə etdiyi günahlarını beləcə ondan uzaqlaşdırıb. Davudun hekayəsində olduğu kimi bizim günahlarımız müxtəlif

cəzalar gətirə bilər, amma biz İsa ilə ünsiyyətdə bağışlanmış insan kimi onlara dözə bilərik. Bəzən günahımız xoşagəlməz nəticə gətirdiyi və həmişə göz qabağında olduğu üçün günahlarımızın bağışlanmağına inanmaq və ondan zövq almaq çətin ola bilər. Amma buna inanmalıyıq, yoxsa biz Allahın Oğluna izzət gətirmirik, çünki "Allaha inanmayan Onu yalançı yerinə qoyub" (1 Yəhya 5:10). Biz belə edəndə Allah günahımızın nəticələrindən bizi azad edir və artıq günah bizi ittiham edə bilməz. Tanrı həyatımız üçün yeni plan qurmaqda ondan sadəcə istifadə edə bilər.

Davud təkcə tövbə etmədi, həm də günahına görə Allahın onun üzərinə qoyduğu bütün cəzaları gileylənmədən qəbul etdi. Rəbb Davudu bütünlüklə bağışlasa da, ona göndərdiyi cəzalar olduqca sərt idi. Tanrı Davudun günahını bağışlayandan sonra Natan ona dedi: "Lakin bunu etməklə Rəbbin düşmənlərinə böyük fürsət verdin ki, Ona küfr etsinlər. Ona görə də mütləq səndən doğulan uşaq öləcək" (2 Şamuel 12:14). O həm də Davuda dedi: "Bundan sonra heç vaxt qılınc sənin evindən ayrılmayacaq... Bax sənə qarşı pisliyi öz nəslindən çıxaracağam" (2 Şamuel 12:10–11). Əlbəttə ki, bu iki cəza Davudun üstünə gəldi və Kəlamdan görürük ki, Allahın bu cəzaları qarşısında o, həlim qaldı. Padşah bilirdi ki, "Rəbb sevdiyini tərbiyələndirər, qəbul etdiyi hər oğulu döyər" (İbranilərə 12:6). Davud anlayırdı ki, ona dəyən zərbə hakimin cəzası deyildi, onu bağışlayan atanın tərbiyəsi idi və ona görə Allaha tabe oldu.

Sonra baş verənlər məlumdur. Bat-Şevanın dünyaya gətirdiyi körpə xəstələndi. "Davud uşaq üçün Allaha yalvardı və oruc tutaraq otağına girib bütün gecəni quru yerdə uzandı" (2 Şamuel 12:16). Amma körpənin ölüm xəbərini eşidəndə məyus olmaq əvəzinə o, "yerdən qalxdı, yuyunub başına zeytun yağı sürtdü və paltarlarını dəyişərək Rəbbin evinə gedib səcdə qıldı. Evə qayıdıb yemək istəyəndə qarşısına yemək qoydular və o yedi" (2 Şamuel 12:20). Xidmətçiləri onun bu hərəkətinə təəccüblənəndə Davud belə cavab verdi: "Uşaq sağ olanda oruc tutub ağlayırdım və deyirdim ki, kim bilir, bəlkə Rəbb mənə lütf edər, uşaq sağ qalar. Lakin indi uşaq

ölüb, nə üçün oruc tutum? Məgər onu geri qaytara bilərəmmi? Mən onun yanına gedəcəyəm, o mənim yanıma qayıtmayacaq" (2 Şamuel 12:22–23). Diqqət yetirin: burada o şikayət etmir, sadəcə Allahın verdiyi cəzanı qəbul edir.

Davudun evində baş verəcək pislik barədə Natanın dediyi peyğəmbərlik də yerinə yetdi. Padşahın həyatında ən çətin an ona qarşı çıxmış, bütün xalqı ondan döndərmiş və taxt-tacı ələ keçirmiş oğlu Avşalomun ölümünü eşidəndə baş vermişdi.

Davud həmin gecə qaranlıqda yüzlərlə sadiq qulluqçuları ilə birgə qaçanda aydın görünür ki, bütün bunlar Allahın iradəsi ilə baş vermişdi. Bu bəla olduqca dəhşətli olsa da, Allahın əli ilə baş vermişdi. Həmin əllər Davudu bağışlamışdı və o, Rəbbi çox sevirdi və ona görə də padşah üçün bu əllərə təslim olmaq çətin deyildi. Padşahın adamları Allahın onlarla olduğunu göstərmək üçün əhd sandığını özləri ilə götürmək istəyəndə Davud dedi: "Allahın sandığını şəhərə qaytar. Əgər mən Rəbbin gözündə lütf tapsam, O məni geri qaytarıb Öz sandığını və məskənini yenə mənə göstərər. Lakin 'səndən razı deyiləm' desə, budur, qoy gözündə nə yaxşı görünsə, mənim üçün elə etsin" (2 Şamuel 15:25–26).

Davudun Allaha tabe olmağını başqa insanlara olan münasibətində də görmək olar. Davudun köhnə düşmənlərindən biri onu açıqcasına söydüyü vaxtda padşahın tərəfdarları həmin adamı öldürmək istəyəndə onlara dedi: "Buraxın onu, qoy o, lənətini etsin, çünki ona Rəbb belə əmr etmişdir. Bəlkə Rəbb çəkdiyim əzabı görüb bu gün onun etdiyi lənətlərin əvəzinə mənə yaxşılıq edər" (2 Şamuel 16:11–12). Davud öz oğlu Avşaloma qarşı münasibətdə çox yumşaqlıq göstərir, oğlu onun bütün əzablarına bais olsa da, ona qarşı çox mərhəmətli davranır. Davud Avşaloma qarşı öz ordusunu göndərəndə ciddi surətdə tapşırır: "Övladım Avşaloma dəyməyin". Davud bir ata kimi öz məhəbbəti ilə oğlunu yumşaltmaq üçün onun ölməyini deyil, sağ qalmasını istəyirdi. Padşah oğlunun ölüm xəbərini eşidəndə çox kədərlənir, onun fəryadı Kəlamda da qeyd olunub: "Oğlum Avşalom, oğlum,

oğlum Avşalom! Kaş sənin yerinə mən öləydim, oğlum! Oğlum, Avşalom!" (2 Şamuel 18:33). Davud həm də düşməninə qarşı mərhəmət göstərir, əvvəlcə Allah qarşısında özünü alçaldır və baş verən hadisələri Allahın iradəsi kimi qəbul edir. Beləcə, Allah təkcə Davudu bağışlamır, eləcə də günahının nəticəsi olan bütün əzablarından və cəzalarından istifadə edir ki, onu müqəddəslik yoluna yönəltsin və Özünə tabe etdirsin.

Biz bağışlansaq da, həyatımızda günahlarımızın nəticəsi olaraq Allah ciddi cəzalar göndərə bilər. Belə halda Allahın cəzalarına tabe olmalıyıq, vəziyyəti ittiham etmədən hər şeyi bizi sevən və bağışlayan Allahın iradəsi kimi qəbul etməliyik. Belə etdikdə biz Rəbbin lütfünü qazanırıq və O, vəziyyəti yoluna qoyub yeni məqsədləri üçün istifadə edir.

Bəzən tövbə etmək üçün insanın təvazökarlığı çatışmır. Bir dəfə bir nəfər əxlaqsız hərəkət etmişdi və kilsənin dyakonları Kəlama əsasən onu cəzalandırmağı qərara almışdılar. Buna görə onun adı kilsə dyakonlarının üzvlüyündən çıxarılmışdı və Rəbbin Süfrəsini qəbul etmək ona qadağan edilmişdi, amma kilsəyə gəlməsinə icazə verilmişdi. Belə görünür ki, o bütünlüklə günahını tövbə etmişdi. Həmin şəxs kilsəyə gəlməkdə davam edirdi və Rəbbin Süfrəsi qəbul olunanda onda iştirak etməyib arxa cərgələrdə otururdu. Kilsə onu yenidən işinə bərpa etməyə tələsmədiyi üçün o əsəbləşdi, dediyinə görə ona qarşı rəhmli davranmadıqlarına görə başqa kilsənin üzvü oldu. Bu bir daha göstərdi ki, kilsə düzgün hərəkət etmişdi, onu işinə bərpa etməyə tələsməmişdi. Dərindən tövbə etmiş insan istənilən cəzanı qəbul etməyə hazır olmalı və imanlı qardaşların onun üçün çıxardığı qərarla razılaşmalı idi. O belə deməli idi: "Əgər onlar məni həmişəlik kilsədən çıxarsalar, bu mənim törətdiyim günahla müqayisədə sadə bir cəzadır". O belə etsəydi, Allahın iradəsini anlayaraq Onun sülhünü qazanacaqdı. Bu insan tezliklə günahkarlar qrupuna daxil ediləcəkdi, çünki məsihçi kilsəsi əslində belə insanların yeridir. Əgər bizi bağışlamır və anlamırlarsa, yəqin biz etdiyimiz günaha görə kifayət qədər dərin tövbə etməmişik və özümüzü

alçaltmamışıq. İnsanlar bizim tövbəni hiss edir və ona uyğun hərəkət edirlər. Sınmış insanı bağışlamaq çətin deyil. Əgər tövbə edəndən sonra da insanlar bizimlə bu cür rəftar edirlərsə, deməli, daha da təvazökar olmalıyıq, çünki biz Allahın qarşısında özümüzü alçaldırıq.

Allahın iradəsi ilə baş verənləri qəbul etdikdən sonra Davud gördü ki, Allah ona hər işində kömək edir, öz övladı kimi tərəfini tutur və bütün düşmənlərini susdurur. Davudun günahından yaranmış vəziyyətə artıq özü deyil, Allah cavabdehlik daşıyırdı. O, yeni niyyətlərini həyata keçirmək üçün Davuddan istifadə edir. Allah padşaha Özünün kim olduğunu göstərir, sanki Davud yaranmış vəziyyətə cavabdeh deyildi, çünki Rəbb Davudu bütünlüklə bağışlamışdı. Bunu qeyd etmək lazımdır ki, Tanrı Davudu bütün düşmənlərindən azad etdi və sonda onu taxt-tacına qaytardı, halbuki padşahlıq etmək ona həmişəlik qadağan olunmuş kimi görünürdü. Avşalom döyüşdə məğlub oldu, ordusu darmadağın edildi və sonra bütün xalq Davuda xəbər göndərdi: “Ey padşah, sən bütün qullarınla bərabər geri qayıt” (2 Şamuel 19:14). Nəhayət, Davud əvvəlkindən daha sevilən və hörmətli bir padşah kimi tanınır. Onun taxt-tacı daha möhkəm və padşahlığı daha çiçəklənən olur. Günahdan sonra yaşadıqları, düşmənlərin nifrəti, hədsiz şəfa verən lütf artıq İsrailin gözəl məzmurçusu üçün bir mövzuya çevrilir və bunları Rəbbə izzət gətirən mahnılarla ifadə edir. Belə nəticəyə gəlmək olar ki, Allah təkcə tövbə edəni bağışlamır, lazım gələndə onu müdafiə edir və onunla öz övladı və qulluqçusu kimi davranır.

Bu bizə də aiddir. Biz tövbə etməyəndə yaratdığımız vəziyyətə görə cavabdehlik üzərimizdə qalır. Amma özümüzü alçaldıb tövbə edəndə biz cavabdehliyimizi Allaha veririk və O, hər şeyi yoluna qoyur. Davudun nümunəsinə uyğun olaraq Allah bizim də həyatımızda sanki heç vaxt günahda ittiham olunmamış kimi Öz yeni niyyətlərini həyata keçirə bilər. Biz öz cavabdehliyimizi Tanrının çiyinlərinə qoyuruq və O imkan verir ki, Onda dincələk. Sonra isə Onunla birgə addımlayaraq işıqlandırdığı yolla gedirik (artıq özümüz yolumuzu davam edə bilərik). Allahın yolu ilə

gedəndə O bizə kömək edir və Onun formalaşdırdığı yeni həyat tərzi yaranır. Biz Rəblə sülhdə olanda O, qarmaqarışıqlığı nizama salır. Belə çətin vəziyyətdə "Onunla necə sülhdə qalmaq olar" sualına belə cavab verərdim. Biz günahımızı etiraf edəndə Məsihin qanı bizi yuyur. Allah qarşısında Onun kimi heç kim bizi yuya bilməz və Rəbb hər zaman tövbə edən insanın, hətta ümidsiz günahkar olsa belə onun yanındadır.

Məsihin Müjdəsi harda təbliğ olunursa olsun bir çox hallarda lütf qələbə çalır. Allah bir çoxlarının günahlarından yaranan fəsadları aradan qaldırır və əzəmətli lütfü ilə onları bağışlayıb xilas edir. "Keçmişdə olduğu kimi... sizə əvvəlkindən də artıq yaxşılıq edəcəyəm" (Yezekel 36:11). Buna nümunə olaraq bir qadın haqda bölüşmək istərdim. Tanıdığım bir tənha ana öz həyatının tam parçalandığı vaxtda İsanı Xilaskarı kimi qəbul etmişdi. O, təkcə əxlaqsız davranışına görə deyil, həm də başqa səbəblərə görə özünü günahkar sayırdı, amma inanırdı ki, İsa onu xilas edə bilər. Bu qadına çox bağışlanmışdı və o öz Xilaskarını sevmişdi. O vaxtdan bəri Allahla yaxın ünsiyyət qururdu, Rəbb İsanın onun həyatına gətirdiyi azadlıq elə güclü idi ki, o, artıq xəcalət hissi keçirmirdi. Qadın onun kimi günahkarı bağışlayan Xilaskarı barədə öz şəhadətliyini həmişə xatırlayırdı. O, Rəbdə xoşbəxtlik əldə etdikdən sonra cəsarətlə işə gedir və Allahın hədiyyəsi kimi qəbul etdiyi övladını böyüdürdü. İblis ona keçmişini xatırladanda qadın dərhal İsanın ayaqlarına düşürdü. O qadın istəyirdi ki, insanlar onu olduğu kimi qəbul etsinlər və o həmişə böyük həvəslə Məsihin tənha anaya verdiyi lütfdən danışırdı. Beləcə neçə illər keçdi. Sonra bir məsihçi onunla ailə qurdu və beləliklə, Allaha izzət gətirən bir məsihçi ailəsi yarandı. Bütün bunlar dağılmış həyatdan yarandı, halbuki allahsız yaşayan insanları belə vəziyyət ümidsizliyə gətirib çıxarardı. Belə insan Xilaskarı tapana qədər vəziyyəti nə cür acınacaqlı olsa da, tövbə edəndən sonra həmişə xoşbəxtlik əldə edir.

Davud günahına görə güclü əzab çəkəndə Allahın günahkarlara verəcəyi lütfə tam əmin idi. Mən sizi ruhlandırmaq üçün bir epizodu

göstərmək istərdim. 3-cü Zəburun başlığında “Oğlu Avşalomun qarşısında qaçanda” yazılıb. Şübhəsiz ki, bu məqam Davudun həyatında ən qaranlıq anlardan biri idi və o, günahına görə Allahın göndərdiyi cəzalardan biri olduğunu anlayırdı. Bizə elə gəlir ki, Davud ruhdan düşəcək, özünü ittiham edəcək, Allahın ona qarşı getdiyini və əməllərinə görə onu cəzalandırdığını düşünəcək. Əslində hər şey başqa cür baş verir. Allaha böyük imanı olan Davud tam əmin idi ki, Rəbb onun tərəfindədir. “Ya Rəbb, düşmənlərim nə qədər çoxalıb! Əleyhimə qalxanlar nə qədər artıb! Mənim üçün çoxları deyir: ‘Allahdan ona xilas yoxdur’. Amma Sən, ya Rəbb, ətrafımda sipərsən, şərəfimsən, başımı ucaldan Sənsən!” (Zəbur 3:1–4). O, Rəbbə inanır və öz imanında daha da möhkəmlənir, günahları üzərində Allahın lütfünün tam qələbəsini və düşmənlərinin bütünlüklə məğlubiyyətini görür: “Qurtuluş Rəbdəndir, qoy Sənin xeyir-duan xalqının üzərində olsun!” (Zəbur 3:8)

Öz axmaq hərəkətlərinə görə çətinliklərlə üzləşən insanı bu sözlər necə də ruhlandıra bilər! Belə insan Allahın lütfünə Davuddan daha çox etibar edə bilər. Çünki tövbə edən insan İsanın onun üçün öldüyünü, Xilaskarın qanının onu bütün çirkinliklərdən, təqsir hissindən tamamilə təmizlədiyini bilir. Ona görə də Allahın təqsirkarı cəzalandırdığını düşünmək lazım deyil. Axı Allah tövbə edənin tərəfindədir və günahkarın yaratdığı qarmaqarışıqlıqdan O, yeni və gözəl bir şey yaradır. Bunu edərək Tanrı günahkarı müqəddəslik yoluna və Ona tabeçiliyə yönəltmək üçün insanı cəzalandırır və Davudun həyatında olduğu kimi ciddi sınaqlardan keçməyə vadar edir.

*Gözəl və xeyirxah olan Rəbb;*
*bütün çaşqınlıqlarımı anladı;*
*Ona təklif edə biləcəyim tək şey ruhumdakı*
*kövrəklik və düşmənçilik idi,*
*Amma O, həyatımdan gözəl bir şey yaratdı.*

10

# Dərin tövbə

Əvvəlki fəsilləri oxuyarkən çox vacib olan və təkrarlanan bir sözə diqqət yetirdiniz. Deyildiyi kimi Allahın şəfa verən lütfünün nəticəsi bu sözdən asılıdır. Həmin söz "tövbə"dir. Onun tərifini verməliyik və tövbə etmək üçün bizdən nə tələb olunduğunu söyləməliyik. Kitabımızın yarımbaşlığı "Dərin tövbəyə kömək" olduğu üçün bu daha böyük əhəmiyyət kəsb edir. Ona görə də Müqəddəs Yazılara müraciət edəcəyik.

Lüğətlərdən öyrənirik ki, "tövbə etmək" kimi tərcümə olunan yunan sözü "fikri dəyişmək" deməkdir. Biz bu sözdən təkcə günaha münasibətdə deyil, başqa hallarda da istifadə edə bilərik. Allah haqqında "insan deyil ki, fikrini dəyişsin" deyilir (1 Şamuel 15:29). Tanrı fikrini dəyişə bilməz və yazılıb: "Çünki Allahın ənamları və dəvəti geri alınmaz" (Romalılara 11:29). Yəni Allah bizə verdiyi çağırışa münasibətini dəyişmir. Esav "xeyir-duanı göz yaşları ilə axtardısa da, atasının fikrini dəyişməyə qadir olmadı" (İbranilərə 12:1). Esav atası İshaqı tövbə etməyə məcbur edə bilmədi, yəni onun münasibətini dəyişdirməyi bacarmadı. İshaq bütün ata xeyir-duasını Yaquba verdi və heç nəyi dəyişmək niyyətində deyildi.

Bu söz əxlaqi məsələlərlə əlaqədar fikrini dəyişən adam üçün işlədilir. İnsan haqlı olduğunu söylədiyi məqamlarda sonradan səhv olduğunu etiraf edir. O əvvəllər özünə bəraət qazandırırdısa, indi özünü ittiham edir. Əslində insanın bu addımı şüurda böyük

dəyişiklik deməkdir, çünki biz hamımız düzgün olduğumuzu sevirik və səhv olduğumuzu boynumuza almaq istəmirik.

Tanrının insanı tövbəyə çağırdığı üç əsas məqamı sadalaya bilərik. Birincisi, insan "tövbə edib Allaha tərəf dönməyə" çağırılır (Həvarilərin işləri 20:21). İnsanın tövbə etməli olduğu əsas şey budur; Allah bütün günahkarları tövbəyə çağırır. Günahkarlar öz həyatlarını idarə edib düzgün hərəkət etdiklərini düşünərək Allahsız qərar çıxardıqlarına görə tövbə etməlidirlər. Onlar fikirlərini dəyişməli, səhv etdiklərini qəbul etməli və Allaha üz tutmalıdırlar. İnsanlar hər hansı səbəbə görə müqəddəslik yolundan döndüklərinə görə deyil, məhvə aparan yolla getdiklərinə görə etiraf etməlidirlər.

İkincisi, insan fərdi günahları və fikirləri üçün tövbə etməlidir. Peter cadugər Şimona belə demişdi: "Bu pisliyin üçün tövbə et, Rəbbə yalvar. Bəlkə ürəyinin bu niyyəti bağışlanar" (Həvarilərin işləri 8:22). Allah bu tövbəyə təkcə Ona ilk dəfə müraciət edəni deyil, həm də çox hallarda Ona ehtiyacı olan məsihçiləri çağırır. Vəhy kitabının ilk fəsillərində Rəbb yeddi kilsədən beşinə xitab edərək deyir: "Tövbə et" (Vəhy 2:5; 2:16; 2:21; 3:3; 3:19).

Üçüncüsü isə bizə "ölüm gətirən əməllərdən tövbə edib" (İbranilərə 6:1) ifadəsi məlumdur. Düşünürəm ki, bu ifadənin mənası "imanla yox, əməllərlə" (Romalılara 9:32) Allah ilə sülh axtarmaqdır. Biz fikirlərimizi dəyişməliyik və hərəkətlərimizlə Allaha qayıtmağa çalışmamalıyıq. Bizim üçün bu doğru görünə bilər, amma belə hərəkətlərə görə tövbə etməliyik. Allahın hüzuruna İsanın qanı ilə gəlməliyik və bu hərəkətlərin Allahın gözündə nə qədər ölü və yararsız olduğunu anlamalıyıq.

Beləliklə, tövbə bu üç məqama, xüsusilə də günaha münasibətinizin dəyişməsidir. Biz günahdan tövbə etməliyik, bunu sözlərlə etiraf edib əməllərimizlə Allaha dönməliyik.

Birincisi, biz etiraf etməliyik. Əlbəttə ki, etiraf tövbədən sonra gəlməlidir. Əgər bir şeydən tövbə etməmişiksə, bunu günah kimi etiraf edə bilmərik. Amma tövbə etmişiksə, onda etiraf etməliyik. Bu, hər şeydən əvvəl Allah qarşısında etirafdır. "Allah bu barədə hər

şeyi bilir, niyə etiraf etməliyəm ki?” demək kifayət deyil. Kəlamda deyilir: “Dua sözləri ilə Rəbbə tərəf dönün” (Huşə 14:3). Yəni tövbənizi sözlə ifadə etməlisiniz. Diz çöküb günah hesab etdiyiniz hərəkətləri və özünüz haqqında nə düşündüyünüzü Allaha söyləyin. Tələsməyin. Allahın qarşısında özünüzü günahlandırın. Özünüzə ən pis adlar verə bilərsiniz və bu, əslində kim olduğunuzu yumşaq bir şəkildə ifadə edəcək. Yadımdadır, bir dəfə Allah qarşısında tövbə edərkən özümü necə dəhşətli dərəcədə danladım. Özümə qarşı sərt olduğumu hiss etdim və bəlkə də günahlarımı qabartdım. Əmin idim ki, özümü ittiham edəndə Allah bir yaxınım kimi mənə deyəcək: “Mən heç də səni belə pis hesab etmirəm”. Əksinə, o gün duadan ayağa qalxanda sanki göydən gələn “Amin” təsdiqini, başqa sözlə “Düzdür” sözünü eşitdim. Yəqin ki, biz özümüzə qarşı çox mərhəmətliyik, ona görə də tövbəmiz daha da dərinləşməlidir.

Pislik etdiyimiz və ya aldatdığımız insana günahımızı etiraf etməyimiz çox vaxt açıq şəkildə görünur. Allah bunu nə vaxt və necə edəcəyimizi bizə bildirir. Təbii ki, etiraf etməklə salehliyimizi, yəni başqaları qarşısında yaxşı nüfuzumuzu itirəcəyik, amma bu belə də olmalıdır. İsa bizim yerimizə çarmıxa gedəndə nüfuzunu itirdi. O bizi günahkar sayanda nüfuzumuzdan imtina etməli deyilikmi? Əlbəttə bu çox çətindir, amma biz məsihçi həyatında yaşamaq üçün ölürük. Biz qürurumuzu basdıraraq həyat əldə edirik və Onun həyatı nə qədər zəngindir! Ola bilsin ki, biz daha dərinə getməliyik və özümüzə bəraət qazandırmaqdan imtina etməliyik.

Başqalarına etdiyimiz zərərin əvəzini ödəməklə tövbəmizi əməldə göstərə bilərik. Bəzi hallarda edə biləcəyimiz tək şey başqasından bizi bağışlamasını istəməkdir. Əslində biz daha çox işlər görməliyik. Məsələn: oğurlanmış malları geri qaytarmalı, başqa bir insanla əxlaqsız münasibətləri dağıtmalı, verilən qərarı ləğv etməli və həyatımızda Məsihin yerini tutan bütdən imtina etməliyik. Bəzən Zakkay kimi insanlara vurduğumuz ziyanı səxavətlə ödəməliyik. Mən “etməliyəm” və “gərək edim” sözlərini işlətsəm də, əvəzini ödəmək məcburi olmalıdır, çünki Rəbb İsa bizi bağışlayıb və ürəyimizi

yumşaldıb. Axı, biz bağışlayacağımız insanları sevirik və ona görə də sözlərimiz "etmək istəyirik" deyil, "etməliyəm" olmalıdır.

İsa Laodikeya kilsəsinə müraciət edərək dedi: "Buna görə də qeyrətə gəl və tövbə et" (Vəhy 3:19). Bizi öyrədənlər həqiqətən düzgün deyirlər ki, Müqəddəs Kitabı oxumaqda, şəhadət və dua etməkdə səy göstərməliyik. Amma bu ayədə İsa bizə "hər şeydən əvvəl tövbə etməkdə səy göstərin" deyir. O bizim Zakkay kimi səmimi və könüllü tövbə etməyimizi istəyir.

Həqiqi etirafın əlaməti budur ki, günahı əməlimiz aşkar olunduqda və başqa çarəmiz qalmadıqda deyil, könüllü olaraq tövbə etməkdir. Müqəddəs Kitabda Akan günahını etiraf etdi: "Yerixonun ələ keçirilməsi zamanı qızıl və paltar oğurladı, ancaq Allah qarşısında günah işlətdiyini söyləsə də, bu ona bağışlanma gətirmədi" (Yeşua 7). Əvvəl qəbilələr, sonra Rəbbin göstərdiyi qəbilə ailələri və daha sonra insanlar arasında püşk atılarkən Akanın öz günahını könüllü etiraf etməsi üçün Allah bir neçə dəfə imkan yaratdı. Bu necə də dramatik bir hekayədir! Allah günahkarın adını Yeşuaya asanlıqla deyə bilərdi və onlar da dərhal Akanın çadırına gedib oğurlanmış malları götürə bilərdilər. Lakin Allah bilərəkdən günahkarın axtarışının bu həlqəvi yolunu seçdi ki, günahkar etiraf etsin və ona rəhm etməyə imkan versin. Lakin həlqə Akan ətrafında yavaş-yavaş sıxılsa da, püşk atıldıqca o, sona qədər təslim olmadı. Nəhayət, bütün ailələr, sonra kişilər püşk atanda və püşk Akanın üstünə düşəndə bağışlanma üçün çox gec idi. Akan itaətsizliyini və tövbə etmək istəmədiyini göstərdi, sonra cinayəti aşkar olunduqda Allah onun daşqalaq olunmasını əmr etdi.

Bəziləri hərəkətləri aşkar edilənə qədər yaxşı iş gördüklərini düşünürlər. Ancaq bunu gizlətmək imkanı varsa, onu gizlədirlər. Ona görə də belə insanlar günahlarını həqiqətən etiraf etmirlər və həyatlarına Allahın bağışlanması gəlmir. Hətta insanın günahı heç vaxt aşkar edilməsə də, yalnız Müqəddəs Ruhun idarəçiliyi ilə bunu dərk etsə də, Allah insana şəfqət göstərəcək və kömək edəcək. Bir insanın Allahla barışması və Tanrının ona kömək etməsi üçün

onun etirafı Akanın etirafından daha dərin olmalıdır. Bəzən günahı aşkara çıxan insan Müqəddəs Ruhun idarəçiliyi ilə, həqiqətən də, özünü mühakimə edir və Allaha yaxınlaşır.

Kaş ki Natan Davudu ittiham etməzdən əvvəl padşah günahını ona etiraf edərdi. Qəlbən əziyyət çəkən Davud Natana başına gələnləri danışsaydı və onun üçün dua etməsini istəsəydi, nəticə nə qədər gözəl olardı. Həmin vaxtda kimsə Davudun tövbəsinin səmimiliyini şübhə altına ala bilərdi. Qeyd etdim ki, Allahla barışmaq üçün günahlarımıza görə Akandan daha dərin tövbə etməliyik. Davudun vəziyyətində tövbə həqiqətən daha dərin idi, əgər o, tövbə etməsəydi heç vaxt Allahın şəfasını dərk etməyəcəkdi. Bunu ona görə deyirəm ki, etiraf etməkdə gecikən və ümidsizliyə düşən hiyləgər ürəkli insanları vaxtında tövbə etməyə ruhlandırım. Onlar hətta Davudun hekayəsindən ruhlana bilərlər və əgər dərin tövbə etsələr, Allahdan mərhəmət alacaqlarına əmin ola bilərlər. Davudun etirafı gec olsa da, dərin tövbəsini sübut edən dəlillər oldu. Birincisi, o, Natanın ittihamını qəbul etdi; üstəlik, bu onu vəziyyətini yüngülləşdirdi. Bir il ərzində Davudun ürəyi günahının boyunduruğu altında əziyyət çəkirdi, çünki günahını gizlədirdi. Padşah həmin vaxtlarda keçirdiyi hisslərini 32-ci məzmurda belə ifadə edir: "Etiraf etməyəndə bütün gün nalə çəkməkdən sümüklərim taqətdən düşdü. Əlin üzərimdə gecə-gündüz ağırlaşdı, sanki yayın quraqlığı məni taqətdən saldı" (Zəbur 32:3–4). Natan ittihamla gələndə Davud onu rahat qarşıladı, çünki etiraf edib günah yükündən qurtula bildi. İkincisi, padşah dərhal bəhanələr gətirmədən və özünü müdafiə etmədən etiraf etdi: "Mən Rəbbə qarşı günah etdim" (2 Şamuel 12:13). Davudun məzmurlarından görürük ki, insanların onu olduğu kimi tanımasını istəyirdi (Zəbur 32, 50). O həm də Allahın ona verdiyi bütün cəzalara təvazökarlıqla tabe oldu.

Bütün bunlar göstərir ki, Davud gec etiraf etsə də, Allaha itaətkar oldu; buna görə də Allahın şəfa verən lütfünün şirinliyini daddı. Bu bizə də aiddir, amma tövbəmizin və etirafımızın uzun müddət gecikdiyini boynumuza almalıyıq.

11

# Siz bağışlamalısınız

İndiyə qədər biz əsasən pislik edən və başqasını incidən bir adamın tövbə etdiyi vəziyyətə baxdıq. Bundan əziyyət çəkən, kədəri dərin və bəzən düzəlməz olan insan haqqında nə demək olar? Əgər günahkar tövbə etməlidirsə, günahdan əziyyət çəkən qarşı tərəf bağışlamalıdır. Əgər əks tərəf bağışlamasa, onda o şəxs yalnız özünə zərər gətirəcək. “Amma ürəyi sınıqdırsa, buna necə dözər?” (Süleymanın Məsəlləri 18:14). Zərər çəkən ona pislik edəni bağışlamadıqda bu, bağışlanmaz ruhun zərər çəkəni içəridən yeməsi və çətinliyinin artması ilə nəticələnəcək. Bəzən kişi arvadını bağışlamır və ya kişi etiraf etdikdən sonra arvad ərini bağışlamır. Onlar baş verənləri daim xatırladaraq bağışlamamazlıqda yaşayırlar. Bəzən bağışlamamazlıq digərinin tamamilə rədd edilməsinə səbəb olur və cütlük birgə həyatlarına son qoyurlar. Çox vaxt bir insan nifrətdə yaşayır və evliliyini pozan üçüncü bir insanı bağışlaya bilmir. Bəzi hallarda kişi və ya qadın həyatına soxulmuş üçüncü şəxsə zərər vurmağı düşünüb hətta bunu planlaşdıra da bilərlər.

Ağır zərbə vurduğu üçün başqasını bağışlamaq həqiqətən çox çətin ola bilər, çünki zərər çəkən üçün etiraf etmək ağrılıdır. Biz haqqımızı müdafiə etməklə və təhqirləri xatırlamaqla bağışlaya bilmərik. Məsələn, bir şəxs başqasına 1000 dollar borcunu bağışlayırsa, bu o deməkdir ki, ziyan özünə dəyəcək və bu

məbləğdən məhrum olacaq. Ziyanın bizə dəyməsinə razılıq verməsək biz bağışlaya bilmərik.

Allahla da belədir. İnsanın təqsirlərini bağışlayaraq, bu günahlara görə O Özü əzab çəkməli olur. Əgər Allah insanı pis əməlinə görə bağışlamalıdırsa, onda Ona qarşı edilən pis rəftara görə əvəzini Özü ödəməlidir. Tanrı Öz Oğlunu çarmıxda bizim üçün ölməyə göndəribsə, o deməkdir ki, günahlarımıza görə O əzab çəkir və qurtuluşumuz Allaha baha başa gəlir.

Bir dəfə Şərqi Afrikanın dirçəliş hərəkatının rəhbərlərindən olan Uilyam Nagenda "*bağışlamayan bir xidmətçi*" məsəlini danışdı. O, müflisləşmiş quluna qarşı şəfqətli olan padşahdan söhbət açdı. Padşah qulunu azad etmək üçün onun 10 min talant gümüş borcunu bağışladı. Uilyam padşahın xidmətçisini bağışlamağın ona nəyə başa gəldiyini təsəvvür etməyə çalışdı. Təsəvvür edin ki, ertəsi gün xəzinədən müxtəlif qiymətli əşyaları hərraca daşımaq üçün sarayın girişində bir araba göründü. Daha sonra kraliça nimdaş paltarlarda insanların evlərində təmizlikçi işləməyə getdi. Bir müddət sonra o, pul qazanmaq üçün başqalarının paltarlarını yumağa başladı. Təəccüblənmiş nökər nə baş verdiyini soruşanda padşah dedi: "Bunun səbəbi sənə olan borcu bağışlamağımdır. Həmin pullar mənim xəzinəmdən götürüldü, onları yerinə qoymaq lazım idi. Borcu özüm ödədiyim üçün bu mənə baha başa gəldi". Rəbb İsa ilə də vəziyyət belədir. İnsan günahının borcu o qədər böyük idi ki, onu ödəmək üçün "Özü varlı olduğu halda sizin uğrunuzda yoxsullaşdı" (2 Korinflilərə 8:9). İnsanları bağışlamaq üçün Rəbb İsa böyük bir itki verməyə hazır idi; Onun başqa yolu yox idi.

Bəli, bağışlanmağımız misilsizdir və biz görəcəyik ki, hətta qadınlar üçün başqasını bağışlamaq asan deyil. Əgər biz bağışlamaq istəyiriksə, onda özümüz də əziyyət çəkməyə hazır olmalıyıq. Başqasını bağışlamaq üçün əziyyət çəkməyi, hüquqlarımızın pozulmasını, təhqir olunmağımızı gözləyə bilərik. Padşah qulu azad etdiyi kimi biz də bu adamı azad etməyə hazır olmalıyıq və əzabımız İsanın bizi bağışlamaq üçün çəkdiyi əzablarla heç

müqayisə olunmaz. Ancaq yenə də daxilimizdə buna qarşı bir üsyan gedir: biz niyə belə ədalətsizliyə dözməliyik; niyə bizimlə belə rəftar edirlər, axı bu ədalətsizlikdir və s. Ancaq bizə qarşı üsyan edən və İsanın qarşısında hüquqlarından imtina etmək istəməyən bizim qürurumuzdur. Qəribə səslənsə də, bu bağışlamamazlıq ruhunun mərkəzində qürur durur. Biz kimik ki, bizə qarşı bu cür şeylər edilməsin və hüquqlarımız pozulmasın? Əgər Tanrı bizim haqqımıza uyğun davransaydı, dəhşətli olardı, çünki hamımız günahkarıq. Biz yalnız qürürün hüquqlarından imtina edərək başqasını bağışlamağı bacararıq. Biz təvazökar olmaqla Onun bizi bağışlayacağını anlayaraq bu hüquqlardan imtina edə bilərik. Onda niyə Rəbbin getdiyi yolla getməyək?

Sözsüz ki, biz bunu etməyəndə nəticə çox açınacaqlı olur. İsa dedi: “Əgər başqa insanların təqsirlərini bağışlasanız, Səmavi Atanız da sizi bağışlayar” (Matta 6:14). Siz özünüzə uyğun olan teoloji düşüncələrə uymayın. Bu ayəyə əsasən insan bağışlamalıdır ki, Allah da onu bağışlasın. Ona görə də günahkar insan ayılmalı və hansı mövqedə dayandığı barədə özünə sual verməlidir.

Əlbəttə, günahkar etiraf edib tövbə edəndə onu bağışlamaq daha asandır. Ancaq qəlbimizdə bağışlamamazlığın kökü qala bilər və biz yenə də “O niyə belə etdi? Niyə məni aldatdı?” fikirlərinə qayıda bilərik. Belə vəziyyət göstərir ki, insan İsanın qarşısında özünü tamlığı ilə alçaltmayıb. Siz özünüzü Rəbbin önündə səmimi tərzdə alçaltmalısınız ki, O sizi təmizləyib yaralarınızı sağaltsın. Baş verənləri Allahın iradəsi olaraq qəbul edin ki, hər iki tərəf vəziyyətdən ibrət dərsi alsın. Onda biz əl-ələ verib ürəklərimizi birləşdirərək Rəbbi izzətləndirə bilərik. Allahın bərpa etdiyi ünsiyyətlər günah onları zədələməzdən əvvəl olduğundan daha güclü və gözəl olacaq.

Bəzilərini bu sual maraqlandıra bilər ki, görəsən o biri adam tövbə etməsə nə olacaq? Buna baxmayaraq onu bağışlamalıyam? Cavab: Bəli, biz Məsihin adı ilə tövbə edib bağışlanmanı qəbul etməzdən çox-çox əvvəl Allah bizi bağışlayib. Əlbəttə ki, biz tövbə

etməyincə Allah bizi bağışlamayacaq. Amma bizim üçün artıq qiymət ödənilib. Allah Məsihdə insanın azadlığı üçün əzab çəkdi, günahkarları təqsirləndirmədən və günahlarını yada salmadan onları bağışladı. Bəli, biz tövbə etməzdən əvvəl və hələ günahkar ikən, Allahın düşmənləri olan bizlərə Onun belə münasibəti var idi. Buna inanmaq çətindir, amma Onun günahkarlarla həqiqətən belə rəftar etməsi bu ayədə göstərilir: "Belə ki Allah insanların təqsirlərini onların əleyhinə qoymayaraq dünyanı Məsihdə Özü ilə barışdırdı. Barışdırma sözünü də bizə əmanət etdi" (2 Korinflilərə 5:19). Bu sonuncu ifadənin mənası Tanrının günahkarları mühakimə etməməsi və günahlarından qurtuluş verməsi deyilmi? Əlbəttə ki, bir insan həyatının sonuna qədər tövbə etməkdən imtina edərsə, böyük ağ taxtın önündəki həyat kitabı açılanda Allah insanları həqiqətən də, günahlarına görə cəzalandıracaq. Nəticədə belə insan Allahdan əbədi olaraq uzaqlaşacaq. Amma o günə qədər Allah insanları günahlarına görə ittiham etmir, çünki Öz Oğlu vasitəsilə artıq onlar üçün əzab çəkib. Bunu Müqəddəs Ruh insanlara açanda onlara həqiqətən təsir edir.

Bizə əziyyət verənlərə qarşı da münasibətimiz eyni cür olmalıdır. Onlar tövbə edənə qədər barışıq yalnız potensial olaraq qalsa da, onları səmimi qəlbdən bağışlamalıyıq. Biz hər şeyə təvazökarlıqla yanaşdıqda bunlar baş verəcək. Onlar hələ tövbə etməsələr də, biz bağışlamaqla onları azad edirik və bu yükü üstümüzdən atırıq. Belə vəziyyətdə Allaha təslim etdiyimiz məsələdə biz öz şəxsi hüquqlarımızdan imtina edirik. Bu da Allaha imkan verir ki, günahkarlara kömək etsin və qəlblərini yumşaltsın. Ancaq qəlbimizdə təqsirkara qarşı hələ də kin və nifrət varsa, onda onları bağışlaya bilmərik. Bundan başqa insanlara olan belə münasibətimiz onların özlərini müdafiə etməsinə və daha da qəlblərinin sərtləşməsinə gətirib çıxaracaq. Əlbəttə ki, bu iş asan deyil və məsələnin həlli üçün İsanın yanına dəfələrlə gəlməliyik.

Ancaq daha bir sual ortaya çıxa bilər. Bəziləri deyə bilər ki, mənə etdikləri pisliyə görə mən uzun müddət, bəlkə də bütün

həyatım boyu əziyyət çəkəcəcəyəm. Belə bir pislik və haqsızlıqla necə barışmaq olar? Bu sualın yeganə cavabı artıq verilib. Baş verənləri bizi sevən səmavi Atanın iradəsi olaraq qəbul etməli və üzərimizə qoyduğu yükə tabe olmalıyıq. Amma soruşa bilərsiniz ki, baş verən hadisələrdə Allahın iştirakı olubmu? Düşünürəm ki, hər birimizin Allahın iradəsi adlandırdığımız dairənin mərkəzində dayandığını başa düşsək, bəli deyə bilərik. Bu dairədən kənar heç bir şey bizə toxuna bilməz. Hər baş verən hadisə nə qədər ədalətsiz və acınacaqlı olsa da, Allahın iradəsinin dairəsindən keçərək Onun müdrik və yaxşı niyyətlərini yerinə yetirdi.

*Mən Allahın iradəsi olan*
*Dairənin mərkəzində durmuşam;*
*Hər bir şey Onun əlindən gəlir,*
*Başqa səbəb ola bilməz,*

Biz bağışlamaqdan imtina etdikdə Allahın iradəsinə qarşı üsyan edirik və özümüzü daha pis vəziyyətə qoyuruq. Bunu eşitmək xoş deyil, heç kim özü haqqında belə şeylər eşitmək istəməz. Ancaq bunu eşitməklə və Allahın iradəsinə tabe olmaqla insan ürəyində sülh əldə edir və Rəblə barışır. Bizə əsas Allahla barışmaq lazımdır, çünki çox vaxt Onun iradəsilə baş verənlərə görə biz Allahla barışa bilmirik. Əslində, biz hətta keçirdiyimiz ağrı-acıdan ağlayaraq Allahı günahlandırıb Ona nifrət edirik.

İsa "Mənim boyunduruğumu üzərinizə götürün və Məndən öyrənin. Çünki Mən həlim və qəlbən itaətkaram. Bununla canınıza rahatlıq taparsınız. Çünki Mənim boyunduruğum rahat və yüküm yüngüldür" deyərkən bunu nəzərdə tuturdu. (Matta 11:29–30). Boyunduruq heyvanın boynu üçün istifadə olunur. Burada boyunduruq rəmzi olaraq Allahın iradəsini, boyun isə insanın iradəsini göstərir. Ancaq Müqəddəs Yazılarda deyildiyi kimi, insan itaətsiz, qəddardır və Rəbbin boyunduruğuna müqavimət göstərir. Allahın boyunduruğunu öz üzərimizə götürmək üçün inadkar boynumuzu

əyməli, yəni alçalmalıyıq. Yalnız bu vəziyyətdə ruhumuzda rahatlıq tapacağıq. Təvazökar olmaq bizim üçün çətindir, ona görə də Məsih bunu məhəbbətlə "Öz boyunduruğu", yəni Özünün bizim üçün daşıdığı boyunduruq adlandırır. İsa Atasının iradəsinə tabe oldu və bizə görə əzab çəkmək üçün çarmıxa gedəndə bu boyunduruğu daşıdı. Rəbb bizdən Onun etdiyindən artıq nəsə etməyimizi gözləmir. Məsihin iradəsi qarşısında boyun əymək bizim üçün çətin görünürsə, Rəbb bizə deyir ki, bu boyunduruğu bizimlə birgə daşıyacaq. Buna görə də İsa dedi: "Məndən öyrənin. Çünki Mən həlim və qəlbən itaətkaram". O, həmişə Atasının qarşısında başını əydi. Rəbb mülayim və qəlbən təvazökar idi. Əgər biz Məsihlə birlikdə addımlamaq istəyiriksə, onda qürurlu və inadkar olduğumuzu etiraf etməli, yanımızda olan Rəbdən öyrənməli və Onun kimi daim başımızı aşağı əyməliyik. Allahın iradəsi olan hər şeylə razılaşaraq başımızı aşağı əyməyimiz Rəbbi razı salır və O, bizə bol məhəbbət və təsəlli göndərir.

# 12

# Boşanma məhkəməsi və ya çarmıx

İndiki dövrümüzdə boşanmaq asandır və cəmiyyətdə çox yayılıb. Ailə həyatında ünsiyyətlər pozulanda çoxları boşanmanı tamamilə yaxşı bir yol hesab edir. Bəzən ailədə münaqişənin ilk əlamətləri ortaya çıxarkən onu həll etməyə heç bir cəhd göstərmədən ər-arvad vəkilin yanına gedir və sonra boşanma prosesini təşkil edirlər. Adətən, ər-arvad uşaqların rifahı barədə çox az düşünürlər. Fikir ayrılıqları o qədər barışmaz görünür ki, valideynlər ayrılıb yeni həyat yoldaşı tapmaq naminə uşaqlarının rifahını belə qurban verirlər. Buna səbəb aralarındakı fikir ayrılığı deyil, sadəcə xırda şeylərə görə birinin digərinə güzəştə getməməsi və hətta daha betəri — birinin digərindən üzr istəməməsidir. Ər-arvadın bir-birindən üzr istəmədiyinə görə nə qədər ailələr dağılır. Nəticədə onlar çox əziyyət çəkirlər və boşanma uşaqlara dəhşətli zərərlər vurur. Boşanma həmişə məsələni həll etməkdən daha çox problem yaradır.

Ən çox narahatlıq doğuran hal budur ki, nikah əhdinə sadiqlikdə məsuliyyətsizlik məsihçilər arasında da yayılmışdır. Məsihçi cütlüklərin boşanması Rəbbin adına necə də ləkə gətirir. İnsanların yetkinsizliyi və hər hansı bir səbəbdən sadəlövhcəsinə boşanmaları necə də acınacaqlıdır.

Allahın insanları və ər-arvadı barışdırmaq üçün bizim qədim üsulumuz — Rəbbimiz İsa Məsihin çarmıxı var. Bu vaxta qədər İsadan daha təsirli bir ailə və evlilik məsləhətçisi olmayıb. Amma

təəssüf ki, bu məsələdə Rəbbə az adam müraciət edir: axı bunun üçün barışmaq lazımdır və görünür ki, daha sadə həll boşanmaqdır. Beləliklə, çarmıx ailələrin şəfa tapmasında və nikahın bərpasında unudulmuş bir amildir.

Biz başa düşməliyik ki, hər bir (evli) cütlükdə Allaha nə qədər sadiq görünsələr də, iki iradə toqquşduqda münaqişə yaranır. Bu, Rəbbi heç də təəccübləndirmir. Sadəcə belə bir vəziyyət yarandıqda O, cütlüyün boşanmasını istəmir (belə bir ehtimal haqqında düşünməsinlər). Əksinə onların maneələri aradan qaldıran və ürəkləri sağaldan Atanın əziz Oğlunun çarmıxının qarşısına gəlməsini istəyir. Rəbb təklif edir ki, cütlüklər çarmıx qarşısına yalnız bir dəfə deyil, ehtiyac yarandıqda dəfələrlə gəlsinlər. Əgər siz Rəbdə birləşmiş gözəl bir cütlüyü tanıyırsınızsa və onlardan birgə həyatları barədə soruşsanız, əminəm ki, belə eşidəcəksiniz: "Sevgimiz və birliyimiz? Bu bizim öz gücümüzlə deyil; özümüzə qalsaydı, biz boşanardıq. Bu, İsanın çarmıxı hesabınadır; ona görə ki yalnız Onun qanı bizi günahdan təmizləyib sevgini bərpa edə bilər".

Beləliklə, İsanın çarmıxı vasitəsilə insan yalnız Allahla deyil, həm də yaxını ilə də barışa bilər. Günah insanla Allah arasında maneələr yaratdığı kimi adamlar və ər-arvad arasında da maneələr yaradır. Çarmıx insanı Allahla barışdırdığı kimi bir insanı da o biri ilə barışdırır.

Çarmıx insanı Allahla necə barışdırır? Əsrlər boyu Allah insanı təvazökar olmağa və günahını boynuna almağa məcbur etdi ki, onu bağışlayıb şəfa versin. Tanrı insan nəslinə bir çox ağır cəzalar göndərdi, amma heç bir faydası olmadı. Adam sınmadı və ittihamı qəbul etmədi, inadkarlıqda yaşayıb Allaha dönmək istəmədi. Nəhayət, Tanrı sanki deyirdi: "Əgər insan sınmazsa, onun yerinə mən sınacağam. Əgər insan ittihamı qəbul etməzsə, onda onu Mən qəbul edəcəyəm". Çarmıxda baş verənlər budur; Allah Məsihdə günahı Öz üzərinə götürdü. Saleh olan Rəbb saleh olmayan bizlər üçün bu işləri gördü. Allahın atdığı bu addım insanı Özünə qaytarmaq üçün ilahi bir hərəkət idi və yaxşı uğur qazandı. Çünki insan tövbə edəndə

anlayır ki, onun günahını Tanrı Öz üzərinə götürüb. Qəlbən alçalmış və yumşalmış bu adam belə deyir: “İlahi, çarmıx mənim yerim idi. Sən yox, mən günah etdim! Mənim günahımı Sənin sevgin əvəz etdi!” Dərhal Allahla barışıq yaranır; insan özünü Yaradanı qarşısında alçaldır və Allah isə onu bağışlayır. Tanrı Özünü alçaldanda Onun yaratdığı varlıq olan insan da özünü alçaldır.

Rəbb İsanın çarmıxı insanı yaxını ilə barışmağa kömək edə bilər. Biz burada ər-arvad arasındakı ünsiyyətlər üzərində dayanacağıq. Aralarındakı fikir ayrılıqları necə başlasa da, tezliklə arvad ərinə “Sən düzgün hərəkət etmədin” deyir. Kişi də öz növbəsində arvada bildirir: “Xeyr, sən səhv edirsən!” Bu qarşılıqlı ittihamlarla aralarındakı gərginlik artır və məhəbbət azalır. Heç kim təslim olmadığına görə vəziyyət dözülməz olur. Sonra onlardan biri vəkillə görüşməyi təklif edir. Nəhayət, cütlükdən biri İsanın çarmıxını xatırlayır. Allahın istifadə edə biləcəyi bir çox vasitələr var. Haqlı olduğunu iddia edən tərəf əslində yalnız Rəbbin haqlı olduğunu başa düşməlidir. Rəbb İsa ən pis cinayətkarın yerini tutaraq öldü (çarmıxda Onun hər iki tərəfində cinayətkarlar var idi), sanki O da cinayətkar idi. Bunu dərk edən insan öz düzgünlüyünü göstərmək istəmir və bağışlayır.

Rəbbin önündə sizin haqlı olduğunuzu mübahisə etmək çox çətindir. Biz haqlıyıq deyirik, amma Rəbbin tam haqlı olduğu kimi biz də tam haqlıyıqmı? Bəlkə də digər insan səhv etmişdi, amma biz onun səhvinə belə reaksiya verməli deyildik. Daxilimizdə olan qəzəb, kin, nifrət bunlar hamısı səhv idi. Biz məsələlərə bu cür yanaşsaq, tam haqlı olduğumuzu iddia edə bilmərik. Bizi günahdan qurtarmaq üçün tamamilə haqlı olan Rəbb tamamilə səhv olanın yerini tutdu. Onda niyə özümüzü səhv olanın yerinə qoymayaq? Tanrının qarşısında tövbə edən insan məhz belə edir.

Ancaq bundan sonra nə olacağına diqqət yetirin. Bir insan digərini ittiham etmək üçün deyil, özünü təqsirləndirmək, günahlarına və səhv hərəkətlərinə görə başqasından bağışlanma diləmək üçün ona üz tutur. Nəticədə, çox vaxt o biri insan da yumşalır, o da qəlbində səhv etdiyinə görə tövbə edir və qarşılıqlı bağışlama baş verir,

halbuki əvvəllər qarşılıqlı ittihamlar hökm sürürdü. İsanın çarmıxı qarşısında iki günahkarın barışdığını görmək necə də gözəldir. Başqasına qarşı itirilən məhəbbət artıqlaması ilə geri qayıdır. Çarmıxda İsanın təvazökarlığı Allahın yaratdığı insanı alçaltdığı kimi, çarmıxa yaxınlaşan insanların təvazökarlığı da digər insanları qəlbən yumşaldır, orada onlar yenidən barışırlar.

Amma həmişə belə olmur və bu dərhal baş vermir. Başqasını tövbə etməyə məcbur etmək asan deyil. Allah heç vaxt insanın azad iradəsinə zidd getmir və ola bilsin ki, kimsə alçalmaq istəməyəcək. Yalnız Müqəddəs Ruh belə insanı yumşaldıb alçalda bilər, amma O bunu etmək üçün sizin təvazökarlığınızdan istifadə edəcək. Siz artıq başqasının günahlarını göstərmirsiniz, ancaq öz günahlarınızı etiraf edirsiniz və beləliklə, gərginliyin bir hissəsi artıq aradan qaldırılır. Başqasının əleyhinə olan ittiham artıq yoxdur və bu, Allaha həmin ürəkdə işləmək imkanı verir. Beləliklə, Allahın çarmıxının qarşısına birinci siz gəlin, o biri adamı gözləməyin! Digər insan sizə dərhal qoşulmasa belə, günahlarınızın sizdən götürüldüyünü biləcəksiniz və Allahla sülhdə yaşayacaqsınız. İsa həm ürəklərdə, həm də uşaqların qəlbində mümkün olmayanı edir və ailənin bərpasına görə Allaha böyük həmdlər ucalır.

Sizə nümunə olaraq iki hekayə danışım. Birinci hekayədə çarmıxa gedən yol açıq olduğu üçün boşanmaya ehtiyac olmadı. İşgüzar bir məsihçi tanışım imanlı bir qadınla evləndi. Həmin qadın məsihçi ərindən boşanıb tanışımla evlənmişdi. Məsihçilərin boşanması bir anlaşılmazlıq kimi səslənir! Burada boşanmış insanların yenidən evlənmə ehtimalı ilə bağlı suallar yaranır, amma indi bunun üzərində dayanmayacağıq, çünki mən bu hekayəni başqa səbəbə görə nümunə gətirirəm. Qəribə görünsə də, məsihçi tanışım bu qadınla evlənənə qədər onun birinci evliliyində nə baş verdiyini heç vaxt düşünməmişdi. Qadın ikinci ərinə keçmiş ərindən niyə boşandığını açıq danışanda tanışım ona tövbə etməyi məsləhət gördü. Bundan sonra qadın günahının nə olduğunu, keçmiş ərinə münasibətinin nə qədər səhv olduğunu başa düşdü. Bir müddət

sonra qadın hiss etdi ki, keçmiş ərindən onu bağışlamağını xahiş etməlidir. Bir neçə ay əri cavab yazmadı və nəhayət cavab gələndə qadın gördü ki, keçmiş əri də səhv etdiyini başa düşüb və ondan bağışlanma diləyir. Gördüyünüz kimi onlar boşanmalı deyildilər. Onlar əvvəlcədən çarmıxın qarşısına gəlsəydilər, bütün bunlarla üzləşməzdilər və hər şey yoluna qoyulardı, əksinə onlar boşandılar.

İkinci hekayə, çarmıxın belə problemləri necə həll etdiyindən bəhs edir. İngiltərədə olarkən kanadalı bir dostumla görüşdə iştirak etdim və o, ölkəsindəki məsihçi dirçəlişi barədə vəz edirdi. Danışığını bitirdikdən sonra dinləyicilərdən nəsə əlavə etmək istədiklərini soruşdu. Heç kimin tanımadığı bir qadın danışmaq istədi. O da Kanadadan gəlmişdi və kanadalı ilə görüş barədə elanı görəndə həmyerlisini dinləmək istəmişdi. O qadın məsihçi olsa da, əri ilə ünsiyyətləri yaxşı olmadığından ayrılmaq qərarına gəldiklərini söylədi. Bu vaxt başqa yerdə kollecdə oxuyan oğlu bu xəbərin onun üçün ağrılı olduğunu və artıq qayıdacağı evin olmayacağını demişdi. Boşanma prosesinə başlamaq üçün sənədlərin imzalanacağı gün artıq müəyyən edilmişdi. Ancaq boşanmadan bir gün əvvəl cütlük bu vaizin gözəl söhbətlərini dinləmək istədilər. Onlar axşam kilsəyə gəldilər və İsa orada hər birinin günahını onlara göstərdi. Ər-arvad çarmıxın qarşısına gəldilər, Allahda sülh tapdılar və bir-biri ilə barışdılar. Bundan sonra onlar dərhal oğullarına məktub yazdılar: “Qayıtmaq üçün evin var. İkimiz də Rəbbi sevirik!” Qadın həm də dedi ki, Rəbbin onun həyatında etdiklərini bölüşmək üçün hər həftə 30-a yaxın adam evlərində toplaşır. Biz boşanmaq əvəzinə çarmıxın qarşısına gələn və nəticəsi bütün gözləntiləri aşan bir cütlüyün qeyri-adi hekayəsini heyranlıqla dinlədik. Rəbbin bu cür gözəl əməlləri barədə eşidəndə biz Ona izzət nəğməsi oxuya bilərik:

*Qoy minlərlə dil*
*Mənim böyük Qurtarıcıma həmd oxusun!*
*Onun lütfünün zəfərlərinə görə*
*Allahıma və Padşahıma izzət olsun.*

13

# Günah sizə hökmranlıq etməyəcək (Romalılara 6:14)

Bu və ya digər şəkildə cinsi əlaqə hər kəs üçün, istər kişi və qadın, istərsə də əsl məsihçi və ya imansız insan olsun, onların hər biri üçün daxili mübarizə mövzusudur. Cinsi əlaqə Allahın insana verdiyi ən gözəl hədiyyələrdən biridir və düzgün istifadə edildikdə xoşbəxtliyin mənbəyi olur. Bu həm də xeyir və şərin ən geniş istifadə etdiyi bir sahədir. Bəlkə də elə buna görə ilk insan günaha batanda bütün bəşəriyyətə təsir etdi. Çünki cinsi instinkt o biri hisslərdən daha çox təhrifə uğradı. Nəticədə, bizim təbiətimizin şəhvani tərəfi yaxşı niyyətlərdən daha çox pis niyyətlərə reaksiya verir. Məsələn, kişi və qadın arasındakı qanunsuz cinsi münasibətlər barədə oxuyanda bizdə qeyri-sağlam bir maraq oyadır, amma kiminsə xoşbəxt ailə həyatı barədə oxuyanda bizdə maraq yaratmır. Cəmiyyətin səhv cinsi davranışlara daha çox marağı var. Hətta biz məsihçilər də neçə illər Rəbbi tanısaq da, bununla mübarizə aparırıq. Allahın bu sahədə necə qalib gəldiyini bilmiriksə, onda Onun haqqında heç bir şey bilmirik. Məsihçi həyatımızın inkişaf səviyyəsi cinsi həyatımızın səviyyəsindən yuxarı qalxmayacaq.

Bir məsihçi kiminləsə təmasda olmasa da, murdar düşüncə, istəklər və şəxsi hərəkətlərlə mübarizə aparır, amma bu işdə o həmişə qalib gəlmir. Məhz iki səbəbə görə bu iş son dərəcə təhlükəlidir. Birincisi, əgər məsihçi “qalib gələ” bilmirsə, günaha sövq olunaraq “Niyə ümumiyyətlə, məsihçi olmalıyam?” deyərək

dünyəvi həyata qayıdıb imandan dönə bilər. Bəlkə də bunun əsas səbəbi elə budur: dünya çox cəlbedicidir, məsihçi həyatı isə maraqsızdır və beləcə insan öz fikirlərinə təslim olur. İkinci səbəb budur ki, insan onun üçün ən yaxşı olanı seçmir. Məsələn, kimsə masturbasiyanın normal olduğunu, hamının, hətta məsihçilərin də belə etdiyini söyləyib artıq bunu günah hesab etməyə bilər. Əgər onun dedikləri doğrudursa, (bunu hamı edir, hətta məsihçilər də), onda kilsələrimizdə niyə oyanışın olmadığının səbəbini axtarmamalıyıq: hamı riyakarlıq edərək öz günahını gizlədir.

Ancaq lütf altında yaşayanda bu bəhanələrə yer yoxdur. Günaha görə ümidsizliyə qapılıb təslim olmaq, təqsirinizi gizlətmək və ya riyakarlıq etmək lazım deyil. Mən "lütf altında" deyirəm, çünki fəslimizin başlığındakı "Günah sizə hökmranlıq etməyəcək" sözlərinin ardınca "siz qanun altında deyil, lütf altındasınız" ifadəsi gəlir. Günahın bizə hakim olmasını istəmiriksə, qanun altında deyil, lütf altında yaşamağın nə demək olduğunu bilməliyik.

Ancaq ilk növbədə "günah sizə hökmranlıq etməyəcək" ifadəsini anlamalıyıq. Bunu başa düşmədiyimizə görə çətinliklərimiz yaranır. Mənimlə belə idi. Düşünürdüm ki, mənə günahla üzləşməyəcəyimə və ona sövq olunmayacağıma vəd verilib. Ancaq həyatımda belə olmadı və Müqəddəs Kitab dərslərində oxuduğum bu ayəyə əsaslanan şeirə nifrət etməyə başladım:

*Artıq günah sizə hakim olmayacaq;*
*Bu necə də möhtəşəm bir xəbər və həqiqətdir.*

Bu şeirdə deyilənlərə nifrət etdim, çünki onlar nəinki cinsi münasibətlər baxımından, hətta bütün məsihçi həyatımda işə yaramırdı. Dediyim kimi, problem onun əsl mənasını tam anlamadığıma görə idi və bu da günahın üzərimdə hökmranlığının nə olduğunu başa düşmədiyim üçün baş vermişdi. Daha sonra anladım ki, günahın hakimiyyəti, birincisi, məni özünə cəlb etməkdə və daim təkrarlanaraq vərdiş halına çevrilməkdə deyil, həmişə

qəlbimdə təqsir hissinin qalmasındadır. Mən təqsir hissi dedikdə, Allahın kitablarında deyilən obyektiv bir şeyi deyil, subyektiv, yəni daxili bir hissi, günah işlədəndən sonra yaranan utancaqlıq hissini nəzərdə tuturam. Zaman bu günahı sağaltmır, sanki qəhvə içdiyimiz fincanı bir neçə gün və ya həftəlik kənara qoysaq da, ləkələr itmir. Biz yenidən günah işlətdikdən sonra təqsir hissi daxilimizdə daha da artır. Bu vəziyyətdə güvənə biləcəyimiz ən yaxşı şey, günahımızı hər kəsdən gizlətməkdir, amma sonralar günah işlədəndə qəlbimizin dərinliyində bu ağırlıq daha da artacaq. Günahın hökmranlığı altına düşməyin mənası budur.

Biz məsihçiləri öyrədiblər ki, himnlərdə deyildiyi kimi günahın təqsiri bir şeydir, günahın hökmranlığı isə başqa şeydir. Topladinin "Əsrlər boyu dayanan Qaya" adlı böyük himnində bu sözlər var: "Məni günahın təqsirindən və hökmranlığından xilas et." Adətən belə güman edilir ki, İsanı Xilaskar olaraq qəbul etdikdən sonra günahın təqsirindən qurtuluruq, amma daim bizi gözləyən sınaqların hökmranlığından qurtulmaq başqa bir şeydir. İnsanlar düşünürlər ki, təqsir hissindən qurtulmaq üçün hansısa ikinci xeyir-duaya ehtiyac var. Əlbəttə ki, bu mənim öz fikrimdir, amma hesab edirəm ki, təqsir hissi və günahın hökmranlığı iki fərqli şey deyil. Günahın üzərimdəki hökmranlığı məni ittiham etmək üçün günahın təqsirindən və gücündən ibarətdir. Məsələn, bir nəfər uzun illər əvvəl hansısa günah işlədib və sonralar o günahı etməsə də, həmin günah onu ittiham etdiyi üçün bu günə qədər hələ də onun hakimiyyəti altındadır. Şüurlu və ya şüursuz olaraq təqsir hissinin izi hələ də onun qəlbində qalıb. Belə bir vəziyyətdə, əlbəttə ki, insanın Allahla ünsiyyəti pozulur, Rəbbin möminlərə vəd etdiyi sülh və sevinc onun daxilində məskən salmır. Üstəlik, bu təqsir hissi yaxınlarla ünsiyyətə də təsir edir, insan təcrid olunur, ünsiyyət qura bilmir, çünki çox şeylər barədə danışmağa cürət etmir.

Belə bir çətin vəziyyətdə hamımız üçün vacib olan Paulun "qanun" adlandırdığı amildir. Biz özümüz üçün daha yüksək tələblər qoyuruq, özümüzü kamilləşdirməyə çalışırıq; daha ruhani

olmağa və xidmətlərdə daha fəal olmağa can atırıq. Biz Allah və yaxınlarımız ilə ünsiyyətlərimizin yaxşılaşacağına ümid edərək bunları həyata keçiririk. Amma bu baş vermir, yəni məqsədlərimiz nə qədər gözəl olsa da, biz bu səylərimizlə daha da ruhani olmayacağıq. Uğursuzluğumuz təqsir hissini daha da artırır və pisləşdirir. Paul "günah isə gücünü Qanundan alır" deyərkən bunu nəzərdə tuturdu (1 Korinflilərə 15:56). Siz düşünə bilərsiniz ki, belə demək lazım idi: "Günahın gücü şirnikləndirmədir, müqəddəsliyin gücü isə qanundur". Ancaq belə deyil, günahın gücü qanundur, çünki Allahın qanunu günahın bizi daha çox ittiham etməsi üçün imkanlar yaradır. Əgər biz qoyduğumuz yüksək tələbləri həyata keçirməyə özümüzü həsr etməsəydik, onda bizdə bu qədər təqsir hissi olmazdı. Günahın hökmranlığı bizi ittiham etmək gücünə malikdirsə, Allahın müqəddəs qanunu yalnız bu gücə qüvvət verir.

Belə bir ümidsiz vəziyyətdə bizim üçün başqa günahlardan çəkinmək çətindir. Ruhani vəziyyətimiz o qədər ölü və xoşagəlməzdir ki, biz növbəti günahın vəziyyəti pisləşdirməyəcəyini düşünürük. Bazar günü səhər masaya təmiz bir süfrə sərəndə hamı onun çirklənməməsinə diqqət yetirir, amma həftənin ortasında süfrədə o qədər ləkə yaranır ki, başqa bir ləkə düşsə də, heç kim ona görə narahat olmur. Bu ümumi bir nümunədir. Belə vəziyyətdə ən çox ümid edə biləcəyimiz şey utandırıcı ləkələri gizlətməkdir. Amma günahı nə qədər gizlədiriksə, bir o qədər də bizi ittiham edir və getdikcə onun hökmranlığının altına düşürük. Bu o demək deyil ki, şeytan bizi əxlaqsız bir şeyi etməyə sövq etdirir, amma onun məqsədi odur ki, günah etdikdən sonra özümüzü ittiham edək (Vəhy 12-ci fəsildə ona "bacı-qardaşlarımızı təqsirləndirən ittihamçı" deyilir). Biz bu vəziyyətdə məsihçi həyatımızda və xidmətimizdə gücsüz oluruq. Çirkin bir iş görmüş məsihçi ertəsi gün özünü döyülmüş it kimi hiss edir, o nə Allaha, nə də yaxınının — məsihçinin gözünə baxmaq istəmir və ruhani xidməti həyata keçirməkdənsə qaçıb gizlənməyi üstün tutur. Burada şeytanın məqsədi məsihçini yenidən günah işlətməyə sövq etdirməkdir. Düşmən ümid edir ki,

bununla daha çox günahlar üçün qapı açılacaq və beləcə insanı daha çox günahlandırmağa imkan yaranacaq. Günah bir şeydir, amma şeytanın günahın üzərində qurduğu təqsir hissi başqa şeydir və çox vaxt bu təqsir hissi günahın özündən daha böyük olur.

Günahın hökmranlığının əsl mahiyyətini və burada şeytanın niyyətlərini anlamaq azadlığa doğru ilk addımdır.

İndi lütf xəbərini eşitməyə hazırıq. Allahın lütfü heç bir şeyə layiq olmayan və heç bir şey edə bilməyən insana olan Rəbbin sevgisidir. Qanuna görə, hamımız günahkarıq və beləliklə, hamımızın lütfə ehtiyacı var. Allahın lütfünün ən böyük işi bu cür insanlar üçün Xilaskar bəxş etməkdir. Bir şeirin nəqarətində belə deyilir:

*Məni azad edəcək heç kim tapılmayanda*
*İsa gəldi, Onun adına həmd oxuyaq!*

Həvari Yəhya deyir: "Məhəbbət bizim Allahı sevməyimizlə bağlı deyil, amma bundan ibarətdir: O bizi sevdi və Öz Oğlunu bizim günahlarımıza görə kəffarə qurbanı olaraq göndərdi" (1 Yəhya 4:10). Qolqotada baş verənlər göstərir ki, Allah bizi heç bir şərt olmadan necə varıqsa elə sevir. İsa təkcə günahlara görə deyil, həm də edəcəyimiz günahlara görə öldü. Romalılara məktubda bu haqda belə deyilir: "Onun ölümü günahın müqabilində ilk və son ölüm oldu" (Romalılara 6:10). Bunun mənası nədir? Rəbb bizi günaha şirniklənmədən qurtarmaq üçün deyil (onları heç vaxt Rəbbə təsir etməyib), günahlarımıza görə borcu Öz qanı ilə ödəmək üçün öldü. Məsih günahın hakimiyyətinin üzərimizdə hökm sürməməsi üçün öldü və Allah Onu ölülərdən diriltdi. Əgər günah çarmıxda bizi əvəz edən İsanı ittiham etməkdə gücünü itirmişsə, onda bizim hamımızı ittiham etməkdə gücünü itirmişdir. İndi bu insanlardan hər biri etiraf edərək çarmıxa qayıtsa, hamısı günah yükündən qurtulacaq və azadlıq tapacaq. Əgər qanun qarşımızda yüksək tələblər qoyursa (və bunun yeganə nəticəsi, əvvəllər də gördüyümüz kimi, daha çox ittiham olunmaqdır), onda lütf bizim üçün hər şeyi edən Məsihə

işarə edir. Biz Onunla birlikdə günahın hökmranlığı üçün ölmüşük və ittiham oluna bilmərik.

Bəziləri üçün "çarmıxa qayıtmaq" ifadəsi heç bir dərin mənası olmayan çeynənmiş dini ifadə kimi səslənə bilər. Ancaq sizi əmin edirəm ki, həyatda bu belə deyil, onun dərin mənası var və təvazökar olmağa kömək edir. Çarmıxa qayıtmaq etiraf edən günahkarın Allah qarşısına, bağışlanma və şəfa alacağı yerə gəlməsi deməkdir. Bunu gecikdirsək, uzun müddət günahın hökmranlığı altında qalacağıq. Əgər özümüzü alçaltsaq və etiraf etsək, biz bağışlanacağıq, təmizlənəcəyik və günahdan azad olacağıq. Allah yanında saleh elan olunacağıq, çünki İsanın qanı Atanın gözündə əbədi bir dəyərə malikdir. Şeytanın qurduğu quruluş, yəni təqsir hissinin təməli Allahın Özü tərəfindən məhv edildi; quruluş dağıldı və məhbus sərbəstliyə buraxıldı.

Biz Allahın "günah sizə hökmranlıq etməyəcək" böyük vədini belə başa düşməliyik. Romalılara məktubun vacib ayələrini də anlamalıyıq: "günahdan azad olub" (6:18), "günaha münasibətdə ölmüşük" (6:2). "Biz azad olduq və günah üçün öldük" dedikdə bu, günaha sövq olunmaqdan azad olmaq və ölmək deyil. Bizi ittiham edən günahın hökmranlığından azad olduğumuz üçün artıq günah yükü altında olmağın bütün nəticələrindən də azadıq.

Sonra lütf altında yaşayan insanın həyatına yeni maraq və sevgi hissləri gəlir. Kimə ki çox bağışlanıb onlar dərindən sevməyə hazırdırlar (Luka 8:36–50-ci ayələrə baxın). Qanun altında günah və təqsir qorxusu var və insan ondan özü heç cür azad ola bilmir. Ancaq lütflə İsanın çarmıxının kölgəsində insanın təqsir hissi yox olur, şeytanın ittihamları susdurulur, vicdan qardan da ağ olur. Beləcə, bizim üçün ölən Rəbbə qəlbimizdə böyük sevgi və yeni istəklər yaranır. Bu istəklər bizi günah işlətməməyə gətirib çıxarır, özümüzü və üzvlərimizi Rəbbimizə təslim edirik. Həmin istəklə ürəyimizdə yaşayan Müqəddəs Ruhun iradəsi güclənir. Bunun nəticəsi indi müqəddəslik sonra isə əbədi həyatdır. Əslində Romalılara yazılan məktub belə xülasə olunur: "Amma indi günahdan azad edilib

Allaha qul olduğunuz üçün götürdüyünüz bəhrə sizi müqəddəsliyə aparır və bunun axırı da əbədi həyatdır" (Romalılara 6:22).

Beləliklə, lütf altında yaşayarkən hər hansı bir günah edəndə ona görə məyus olmamalıyıq. İsanın qanı həmişə bizi bərpa edir və təmizləyir. Bu yeni vəziyyətdə günah artıq bizə hakim olmamalıdır, biz sadəcə çarmıx qarşısına gəlib günahı etiraf etməliyik. Digər tərəfdən, biz uğursuzluqlarımızı gizlədib riyakarlıq etməməliyik. Biz lütf altında Allahla səmimi olub bəhanə gətirmədən günahı günah adlandırmalıyıq. Atanın itmiş oğul məsəlində olduğu kimi, göylərdəki Atamızın da gəlib bizi qucaqlamasını istəyiriksə, onda Allahla səmimi olmalıyıq. Biz Allahı lütf Allahı, günahkarın Allahı kimi görəndə bunu həvəslə həyata keçirəcəyik. Buna görə də biz farisey kimi "Mən başqaları kimi deyiləm" yox, amma vergiyığan kimi "Ya Allah, mən günahkara rəhm et" dua etməliyik.

Amma günaha münasibətdə "yenə də" sözünü işlədərkən diqqətli olun, əks halda İsanın qanının gücünü unudacaqsınız. Əgər siz "Ya Rəbb, mən bunu yenə də etdim" desəniz, bilirəm ki, O "Yenə nə etdin?" deyəcək. Əvvəllər etdiyiniz bu günahı Məsih qeydiyyata almayıb: İsanın qanının gücü bax budur! Əgər siz çarmıxa gəlməyin nə demək olduğunu bilirsinizsə, əvvəllər baş verənlərlə özünüzü yükləməyinizə ehtiyac yoxdur. Allahın qarşısına bu günahla gəldikdə O sanki bunu sizdən ilk dəfə eşidir, çünki keçmiş günahları unudub. Buna görə də növbəti dəfə İsanın yanına gələndə siz sevinclə deyə bilərsiniz: "Bu gün həyatımın sanki ilk günüdür".

# Mündəricat

Ön söz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 3

1. Qəribə başlıq . . . . . . . . . . . . . . . . . . . . . . . . 5

2. Unudulmuş amillər . . . . . . . . . . . . . . . . . . . . . 9

3. Ər-arvad vəfasızlığında unudulmuş amil . . . . . . . . . . . 13

4. Zinada unudulmuş amil . . . . . . . . . . . . . . . . . . . 21

5. Şişirdilmiş ikiüzlülüyün unudulmuş amili. . . . . . . . . . 27

6. Homoseksuallıqda unudulmuş amillər. . . . . . . . . . . . . 33

7. İnsanın öz bədəninə şərəfsizlik gətirməsi haqqında . . . . . . . . . . . . . . . . 41

8. Allaha gətirdiyimiz fəryad edən pislik. . . . . . . . . . . . 45

9. Heyranedici lütf — qarışıqlıq aradan qaldırıldı! . . . . . . . . . . . . . . . . . . . . . . . 51

10. Dərin tövbə . . . . . . . . . . . . . . . . . . . . . . . . . 61

11. Siz bağışlamalısınız . . . . . . . . . . . . . . . . . . . . . 67

12. Boşanma məhkəməsi və ya çarmıx . . . . . . . . . . . . . . 73

13. Günah sizə hökmranlıq etməyəcək (Romalılara 6:14) . . . . . . . . . . . . . . . . . . . . 79

KITABI-KNIGI.COM

İstənilən cihaza öz dilinizdə
yükləyin və oxuyun. Bütün ailəniz
üçün pulsuz elektron kitablar.



# BAĞIŞLANIB YOXSA YADDAN ÇIXIB?

İndi seksuallıq sahəsində olan azadlıq barədə çox danışılır və yazılır.

Məsihçilik hər zaman cinsi əxlaqda tərki-dünyalıqla tanınmışdır. Lakin bu belə deyil. Müqəddəs Kitabdakı cinsi həyat anlayışları ilə psixoloq və psixiatrların araşdırmaları arasındakı uyğunluq barədə düşünün.

Müəllifin fikrinə görə əsl daxili və zahiri azadlıq Allaha tabe olur.

Məsih də günahı Müqəddəs Kitabda olduğu kimi təyin etdi. Seksuallıq günahla eyni deyil. Əksinə, seksuallıqla günah, tövbə və bağışlanma arasında bir əlaqə vardır.

Məsələn, Korinfdəki kilsə əsasən Məsih vasitəsilə azad edilmiş keçmiş zinakarlardan, cinsi əxlaqsızlardan, homoseksuallardan, oğru və içki düşkünlərindən ibarət idi.

Allahın lütfü insanı seksuallıq sahəsində tamamlayır. Seksuallıq mövzusu düzgün başa düşülməli və izah olunmalıdır.

Ər-arvad vəfasızlığı, zina, yalan, homoseksuallıq — bu anlayışlar İsa tərəfindən açıq şəkildə izah edilmişdir.

Bu kitab Müqəddəs Kitaba əsaslanmış mövqeyinizi inkişaf etdirmək üçün yaxşı bir vasitədir.

AZ

RH
BT

ROY HESSION
BOOK TRUST